# İlahilər

*Ey, bütün yorğunlar və yükləri ağır olanlar,*
*Mənim yanıma gəlin, Mən sizə rahatlıq verərəm.*
*İsa Məsih*

*ver.2025/12/05*

**Katolik kilsəsi**
**Azərbaycan**




*Əgər bütün bəşəriyyət saleh olsaydı*
*və yalnız bir nəfər günahkar olsaydı,*
*Məsih bu bir nəfər üçün də olsa belə,*
*gəlib eyni əzabı çarmıxda çəkərdi.*
*O hər bir fərdi çox sevir.*
***(Müqəddəs Avqustin)***

***www.catholic.az***

BU KİTAB AZƏRBAYCAN RESPUBLİKASININ
DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN
İCAZƏSİ İLƏ (DK-417/F SAYLI MƏKTUB) ÇAP EDİLİB.



*Qızıl qanun*

İnsanların sizinlə hər hansı bir işdə
necə rəftar etməsini istəyirsinizsə,
siz də onlarla elə rəftar edin.
**(İsa Məsih)**

# Mündəricat


Adınla..............................................1.
Alqış, Alqış........................................2.
Alqışlayıram.......................................3.
Alqış Sənə, Ey Rəbbim.......................4.
Alqışlamaq Səni.................................5.
Allahım, Sən Nə Yaxşısan..................6.
Allahım, Allahım, Allahım..................7.
Ata, Sənin Sevgin..............................8.
Azad, Azad, Azadam..........................9.
Bağışla, Tanrım...............................10.
Bütün Susayanlar.............................11.
Bax, Taxtda Oturan Rəbbə..............12.
Bir-birinizin Yüklərini......................13.
Bu Dünya........................................14.
Cənnət Deyir...................................15.
Bu Sözlərimi Eşidib.........................16.
Cənnətin Qapısı..............................17.
Çörəyi Bölüb...................................18.
Ehtiyatlı Olun..................................19.
Ey Ata, Sevirəm Səni.......................20.
Ey Bütün Yorğunlar.........................21.
Əgər Biz Bir-birimizi Sevsək...........22.
Əgər Mən İnsan (Məhəbbət)...........23.
Əzablıdır İnsan Bu Gün...................24.
Gəl, Rəbb İsaya...............................25.
Gəl, Gəl Bizə İmmanuel...................26.
Gəl, Rəbb İsa, Gəl...........................27.
Gəl, Mənim Rəbbim.........................28.
Gələrsən, Gələrsən..........................29.
Göy Üzündə....................................30.
Hey Ağlaya-ağlaya...........................31.
Həmişə Sevinin...............................32.
Hər Zaman......................................33.
Xeyir-dua........................................34.
Hər Zaman Mən Sevəcəm...............35.
Xəyalım Dolanır..............................36.
İsa Ən Uca Addır O.........................37.
İnanırıq Məsihsən...........................38.
İlahi Əlində.....................................39.
İsa Dirildi.......................................40.
İsa, Həyatları Dəyişir.......................41.
İsa Məsih, Tanrının Oğlu.................42.
İsa Padşahdır..................................43.
İsa, Çörəyimsən..............................44.
İsa, Tanıdın Məni............................45.
İndi və Həmişə................................46.
İsa Ölüb Dirildi................................47.
Kədər Yüklü Yolda..........................48.
Qolyat Cəngə Çıxdı.........................49.
Kainata Nur Saçan..........................50.
Kədərimdə Sevincimsən..................51.
>> Mən Zəifkən Sən gücümsən..........
Qoy Mənim Sözlərim.......................52.
Qəlbimi Pak Et................................53.
Lazımsan Mənə...............................54.
Məhəbbətin....................................55.
Mədh Eləyin...................................56.
Məni Sevdin Rəbb..........................57.
Məhəbbət, Çox Qüdrət....................58.
Məni Al Qollarına............................59.
Mənim Üçün...................................60.
Məsihin Qəlbi.................................61.
Məsih Dirildi..................................62.
Məzmur 1 / Pislərin.........................63.
Məzmur 19 / Göylər.........................64.
Məzmur 22 / Ey Allahım..................65.
Məzmur 23 / Rəbb Mənim Çobanımdır.....66.
Məzmur 36 / Şər Pis İnsanın...........67.
Məzmur 37 / Rəbbə Güvən.............68.
Məzmur 40 / Lalalay........................69.
Məzmur 42 / Könlüm.......................70.
Məzmur 51 / Məhəbbətinə..............71.
Məzmur 57 / Rəhm Et.....................72.
Məzmur 59 / Pənahımsan................73.
Məzmur 63 / Məhəbbətin................74.
Məzmur 88 / Ya Rəbb......................75.
Məzmur 103 / Rəbbə Alqış.............76.
Məzmur 121 / Gözlərim...................77.

Məzmur 139 / Hara Gedim?............78.
Mühakimə......................................79.
Minnətdaram Sənə İsa.....................80.
Müqəddəs Ruh Gəl...........................81.
Müqəddəs Ruh Gəl, Yu....................82.
Müqəddəssən..................................83.
Müqəddəs Ruh, Toxun.....................84.
Müqəddəs və Məsh Edilmiş.............85.
Nə Bəxtiyardır.................................86.
O Yaşayır!.......................................87.
Olduğun Yerdə................................88.
Pərvərdigar....................................89.
Rəbbi İzzətləndirin...........................90.
Rəbb ilə bu gün görüşdüm..............91.
Rəbb Qüdrətlidir..............................92.
Rəbbimiz Allahımız..........................93.
Rəbbin Adına Alqış Deyək...............94.
Ruhum ol, Canım ol.........................95.
Sağlamların Deyil............................96.
Sən Dünyaya Gəldin ki....................97.
Səni Ucaldıram, Rəbb......................98.
Sən Ucasan....................................99.
Sənin Önündə Diz Çökürəm..........100.
Sənin Sevginə Ehtiyacım Var........101.
Səninlə.........................................102.
Sinə Gəldin Əzablara....................103.
Susadınsa Əlacın İsa....................104.
Sən Tanrımsan..............................105.
Sənin Məhəbbətin..........................106.
Şadam, Şadam..............................107.
Tamam Oldu O..............................108.
Tanrım, Məqsədim Ol....................109.
Tək Səni Sevdim............................110.
Ucadır Şahımız!............................111.
Tövbə............................................112.
Ucaldıram Səni.............................113.
Ura - Ad Günləri...........................114.
Ura - Mayak..................................115.
Ura - Rəbbin Sözü.........................116.
Ura - Səmalarda............................117.
Ura - İsa Rəbbimiz........................118.
Ura - Ura......................................119.
Ura - Rənglər................................120.
Ura - O, Rəbdir..............................121.
Ura - Rəbbin Nuru.........................122.
Vaiz — Hər Şey Puçdur.................123.
Ürəyimi........................................124.
Ürəyimi Dəyiş...............................125.
Yalnız Sən....................................126.
Yaralarında Gizlət Məni................127.
Yeməklər — Ürəklər......................128.
Yorğun Ürək.................................129.
Yüksək Yüksək.............................130.
Himayənə Gəlirik...........................131.
Müqəddəs Məryəm........................132.
Salam, Mübarək Məryəm..............133.
Sevin, ey bəysiz Gəlin...................134.
Cəbrayılın Xəbəri..........................135.
Litaniae Lauretanae.......................136.
Salam, Müqəddəs Mələkə..............137.
Məryəm, Mənim Anam..................138.
Kədərli Ana...................................139.
Səmavi Mələkə..............................140.
Stabat Mater.................................141.
O Müqəddəs..................................142.
Ave Məryəm!.................................143.
Ey Ləkəsiz Bakirə..........................144.
Rəbbin Mələyi...............................145.
Korlar Görür.................................146.
Rəbb İsa Məsih.............................147.
Sülh Üçün Dua..............................148.
Allah Məğrurlara Qarşıdır.............149.
Məsih İsa Necə Düşündü..............150.
Düşmənin Acdırsa..........................151.
Sizi Təqib Edənlərə.......................152.
Başlanğıcda Kəlam Var İdi............153.
Məzmur 94 / Dərk Edin................154.
Məzmur 118[1] / Bu Günü..............155.
Məzmur 118[2] / Yaxşıdır...............156.
Məzmur 127 / Evi Rəbb tikməzsə..157.
Məzmur 131/Təkəbbürlü deyiləm. 158.
Məzmur 130/Ümidsizlik dəryası....159.

Məzmur 133 / Nə yaxşıdır, nə xoş. 160.
Məzmur 147 / Sınıq Qəlblərə........161.
Məzmur 148 / Rəbbə Həmd Edin. .162.
Necə ki.........................................163.
İsa Məsih - Allah...........................164.
Möhtəşəm, Mehriban.....................165.
Budur, Qan...................................166.
Mənim Kiçik İşığım........................167.
Allahın Məhəbbəti Gözəldir...........168.
Rəbb Səni Çağırırsa.......................169.
Sən Yaxşısan.................................170.
Ardımca Gəlmək İstəyən...............171.
Bizsə Çarmıxa Çəkilmiş.................172.
Gəl, Yaradan Müqəddəs Ruh.........173.
Cavanların Atası............................174.
Minnətdarıq..................................175.
Üçlük *O*lan *T*ək Allah.....................176.
Rəbbim və Tanrım.........................177.
Rəbb, Rəbb, bizə rəhm et.............178.
İzzətləndirin.................................179.
Gəlmişik.......................................180.
Hüzuruna Gəlmişik........................181.
İsanın Adına Yalvarışları(Litaniya) 182.
Litaniae Sanctorum.......................183.

**Milad**

Doğulub İlahi Körpə.......................184.
Səssiz Gecə, Sirli Gecə..................185.
Körpə Doğuldu..............................186.
Sevinc Günü..................................187.
Sevin Dünya!.................................188.
Mələkləri Dinləyin.........................189.
Göylərdən gəldin Sən.....................190

O filii et filiae.................................191
Həqiqət Ruhu, Gəl..........................192
Məzmur 27 – Rəbdir nurum...........193
Akvinalı Tomasın duası..................193
Hamıdan çox..................................194
Mərhəmət Anası.............................195

# Müqəddəs Messa

## 1. Başlanğıc ayinlər

Ata, Oğul və Müqəddəs Ruhun adı ilə. **Amin.**

Rəbb Sizinlə olsun. **Və sənin ruhunla.**

**Hər şeyə qadir Allaha və sizə,**
**bacılarım və qardaşlarım,**
**etiraf edirəm ki,**
**öz təqsirimdir ki, fikirlərimdə**
**və sözlərimdə, hərəkətlərimlə**
**və borcumu yerinə yetirməməklə**
**çox günah etmişəm.**
**Mənim təqsirimdir, mənim**
**təqsirimdir, mənim böyük**
**təqsirimdir. Buna görə Müqəddəs,**
**Həmişə-Bakirə Məryəmdən, bütün**
**Mələklərdən və Müqəddəslərdən**
**və sizdən, bacılarım və qardaşlarım**
**xahiş edirəm ki, mənim üçün**
**Rəbbimiz Allaha dua edəsiniz.**

Hər şeyə qadir Allah bizə rəhm etsin,
günahlarımızı bağışlasın
və bizi əbədi həyata qovuşdursun.

**Amin.**

---

Rəbbimiz, bizə rəhm et.

**Çünki Sənə qarşı günah etmişik.**

Rəbbimiz, bizə mərhəmət göstər

**və bizi xilas et.**

---

**Rəbb, bizə rəhm et**
**Məsih, bizə rəhm et**
**Rəbb, bizə rəhm et**

---

***Kyrie, eleison***
***Christe, eleison***
***Kyrie, eleison***

## *Himn: Gloria in Excelsis Deo*

**Göylərdəki uca Allaha həmd olsun
və yer üzündəki xoş məramlı
insanlara sülh gəlsin. Səni tərif
edirik. Səni ucaldırıq. Qarşında
diz çökürük. Sənə həmd edirik.
Uca Allah, göyün Hökmdarı,
hər şeyə qadir Ata, ey Allahımız,
uca Əzəmətin üçün Sənə şükür edirik.
Rəbb İsa Məsih, Yeganə Oğul, Rəbb
Allah, Allahın Quzusu, Atanın Oğlu,
dünyanın günahlarını təmizləyən
Sən, bizə rəhm et; dünyanın
günahlarını təmizləyən Sən,
dualarımızı qəbul et; uca Allahın
sağında əyləşən Sən, bizə rəhm et.
Çünki yalnız Sən müqəddəssən,
yalnız Sən Rəbbimizsən,
yalnız Sən uca Allahsan.
Ey Məsih İsa, Müqəddəs Ruhun
birliyində Ata Allahın izzətindəsən.
Amin.**

Dua edək..... **Amin.**

# 2. SÖZ LİTURGİYASI

(MÜQƏDDƏS KİTABIN OXUNUŞU)

## 1ci oxunuş

Bu, Allahın Kəlamıdır.

**Allaha şükürlər olsun.**



## Məzmur

## 2ci oxunuş

Bu, Allahın Kəlamıdır.

**Allaha şükürlər olsun.**

## Alleluya

*(Oruc dövründə "Alleluya" oxunmur)*

**Ey, Allahın Kəlamı, Sənə həmd olsun!**

## İncil

Rəbb sizinlə olsun. **Və sənin ruhunla.**

Müqəddəs N-ın Müjdəsindən İsa Məsihin sözləri. **Şan-şərəf Rəbbindir.**

.......................................................................................................

Bu, Rəbbin Kəlamıdır.

**Rəbb İsa Məsih, Sənə həmd olsun.**

## Moizə

## Nikeya-Konstantinopol Kredosu

İman edirəm
– bir tək Allaha inanıram.
Yerin və göyün, görünən və
görünməyən bütün varlıqları yaradan,
Külli-İxtiyar Ata Allaha inanıram.
Əzəldən Atadan dünyaya gəlmiş,
Allahın yeganə Oğlu, bir tək
Rəbb olan Məsih İsaya inanıram.
O, Allahdan Allah, Nurdan Nur,
Həqiqi Allahdan Həqiqi Allahdır.
O doğulmuş, lakin yaradılmamışdır,
Ata ilə eynidir və hər şey
Onun vasitəsi ilə yaradılmışdır.
Biz insanlara görə
və bizi xilas etmək naminə
göydən enmiş, Müqəddəs Ruhun
qüdrətilə Bakirə Məryəmdən
Vücud alıb insan olmuşdur.

Pontius Pilatus vaxtında bizim üçün acı çəkərək çarmıxa çəkilmiş, ölmüş, dəfn edilmiş və Müqəddəs Yazılara görə üç gündən sonra dirilmişdir. Göyə qalxmış və Atanın sağında oturmaqdadır. Diriləri və ölüləri mühakimə etmək üçün təkrar gələcək və Onun padşahlığı heç vaxt sona çatmayacaqdır. Peyğəmbərlər vasitəsi ilə danışmış olan Ata və Oğuldan gələn, Ata və Oğul ilə birlikdə sitayiş edilən və ucaldılan, həyatın qaynağı və Rəbb olan, Müqəddəs Ruha inanıram. Bir olan, Müqəddəs, Ümumdünya (katolik) və Həvari Kilsəsinə inanıram. Günahların əfv edilməsi üçün tək bir vəftizi qəbul edirəm, ölülərin dirilişini və əbədi həyatı gözləyirəm. Amin.

## Həvarilərin Kredosu

İman edirəm. Yeri və göyü yaradan Külli-ixtiyar Ata Allaha və Onun Yeganə Oğlu, Müqəddəs Ruhdan döllənmiş, Bakirə Məryəmdən doğulmuş, Ponti Pilatın hökmü altında əzab çəkmiş, çarmıxa çəkilmiş, ölmüş və dəfn olunmuş, ölülər aləminə enmiş, üçüncü gün dirilmiş, göylərə qalxmış, külli-ixtiyar Ata Allahın sağında əyləşmiş, oradan diriləri və ölüləri mühakimə etməyə gələcək, Rəbbimiz İsa Məsihə iman edirəm. Müqəddəs Ruha, Müqəddəs Ümumdünya Kilsəsinə, müqəddəslərin ünsiyyətinə, günahların bağışlanmasına, bədənin dirilməsinə, əbədi həyata iman edirəm. Amin.

## Möminlərin duası

**Eşit bizi, ya Rəbb.**

...

**Amin.**

# 3. EVXARİSTİYA LİTURGİYASI
## (ÇÖRƏYİN VƏ ŞƏRABIN TƏQDİM EDİLMƏSİ)

...**İndi və həmişə**
**Allaha şükür edək. 2x**

...

Qardaşlarım və bacılarım, Allah,
hər şeyə qadir Ata mənim və sizin
qurbanınızı qəbul etməsi üçün dua edin.

**Allah Öz adının ucalığına**
**və şanına, bizim və bütün**
**Müqəddəs Kilsəsinin**
**rifahı üçün əllərindən**
**bu qurbanı qəbul etsin.**

...

**Amin.**

Rəbb sizinlə olsun. -

**Və sənin ruhunla.**

Qəlblərimizi yüksəldək.

**Qəlblərimiz Rəbb ilədir.**

Rəbbimiz Allaha şükür edək.

**Bu, doğru və adildir.**

---

**Müqəddəs, Müqəddəs, Müqəddəsdir, Rəbbimiz, kainatın Allahı. Göylər və yer Sənin şanınla doludur. Hosanna səmalardakı uca Allaha. Rəbbin adı ilə gələn xeyir-dualıdır.**

**Hosanna səmalardakı uca Allaha.**

***Sanctus, Sanctus, Sanctus, Dominus Deus Sabaoth. Pleni sunt caeli et terra gloria tua. Hosanna, hosanna, hosanna in excelsis. Benedictus qui venit in nomine Domini.***

## EVXARİSTİYA DUASI

...

İmanın sirridir.

**Rəbbimiz,**
**Sənin ölümünü elan edirik,**
**dirilişini etiraf edirik**
**və şanlı gəlişini gözləyirik.**

(və ya)

Bu Çörəyi yeyərkən və bu kasadan içərkən,
Rəbbimiz, Sənin ölümünü elan edirik
və şanlı gəlişini gözləyirik.

(və ya)

Dünyanın Xilaskarı, bizi xilas et,
çünki çarmıxınla və dirilişinlə
bizi azad etmisən.

(və ya)

Məsih ölüb, Məsih dirilib,
Məsih qayıdacaq.

...

**Amin.**

Xilasedici əmrlərdən öyrənərək və ilahi nəsihətlərdən ruhlanaraq, cəsarətlə deyirik:

**Ey göylərdə olan Atamız!**
**Adın Müqəddəs tutulsun,**
**Sənin Səltənətin gəlsin,**
**göydə olduğu kimi, yerdə də**
**Sənin iradən olsun.**
**Gündəlik çörəyimizi**
**bizə bu gün ver;**
**və bizə borclu olanları**
**bağışladığımız kimi,**
**bizim borclarımızı da bağışla.**
**Və bizi sınağa çəkmə,**
**lakin bizi şərdən xilas et.**

...

**Çünki Səltənət, qüdrət və izzət**
**əbədi olaraq Sənindir!**
... **Amin.**

***Pater noster, qui es in cælis,***
***sanctificætur Nomen Tuum,***
***adveniat Regnum Tuum,***
***fiat voluntas Tua,***
***sicut in cælo et in terra.***
***Panem nostrum cotidianum***
***da nobis hodie,***
***et dimitte nobis debita nostra,***
***sicut et nos dimittimus***
***debitoribus nostris,***
***et ne nos inducas in tentationem,***
***sed libera nos a Malo.***

**Sülh nişanı**

Rəbbin sülhü həmişə sizinlə olsun.

**Və sənin ruhunla.**



**Üzərinə dünyanın**
**günahlarını götürən**
**Allahın Quzusu,**
**bizə mərhəmət et.**

**Üzərinə dünyanın**
**günahlarını götürən**
**Allahın Quzusu,**
**bizə mərhəmət et.**



**Üzərinə dünyanın**
**günahlarını götürən**
**Allahın Quzusu,**
**bizə sülh ver.**

Budur, dünyanın günahlarını Öz üzərinə götürən Allahın Quzusu. Quzunun süfrəsinə dəvət edilənlər nə bəxtiyardır.

**Rəbbim, mən layiq deyiləm ki,**
**Sən evimə gələsən,**
**lakin yalnız Sənin bir kəlmən ilə**
**qəlbim sağalacaq.**

## Evxaristiyadan sonra dua

Dua edək... **Amin.**

## 4. TAMAMLAYICI AYİN

...Rəbb sizinlə olsun.

**Və sənin ruhunla.**

Hər şeyə qadir Allah – Ata, Oğul və Müqəddəs Ruh sizə xeyir-dua versin.

**Amin.**

...

Sülh ilə gedin.

**Allaha şükürlər olsun.**

†

## Yepiskop icra edən Messada

*Rəbbin adı ucaldılsın.*

*** İndi və əbədiyyən.**

*Köməyimiz Rəbbin adındadır.*

*** Göyü və yeri Yaradanın.**

## 1. Adınla

Adınla, Sənin adınla, Sevginlə, Sənin sevginlə
(: Sülh taparam mən, öz ürəyimdə. :)

**N: (: Bütün ağrılardan azad elədin,**
**Çətinliklərimdə kömək elədin.**
**Sənə arxayınam bütün varlığımla**
**Rəbb Xilaskarım mənim. :)**

Lütfünlə, Sənin lütfünlə, sözünlə, Sənin sözünlə
(: Sülh taparam mən, öz ürəyimdə. :)

## 2. Alqış, Alqış

**(: Alqış, alqış, Allahın Quzusuna.:)**
Sən möcüzəli dostumsan, layiqsən Sən
Alqışa söylədiyim mən.
Sənin qarşında diz çökürəm mən,
Ey Allahın Quzusu.

## 3. Alqışlayıram



Alqışlayıram və ucaldıram,
Məhəbbətin əbədidir,
Müqəddəsimsən, Xilaskarımsan,
Həyatımı sənə verdim.

# 4. Alqış Sənə, Ey Rəbbim

*Give Thanks (orig. Pet Shop Boys – Go West)*

Alqış Sənə, ey Rəbbim, yanar Sənsiz bədənim
Xilas etdin bizi, Sən öz adınla
Alqış Sənə, ey Rəbbim, ağlar Sənsiz gözlərim
Xilas etdin bizi, Sən öz qanınla
**İndi zəif deyər güclüyəm, kasıb deyər varlıyam, əməllərinlə varlıyam, Sənin.**

# 5. Alqışlamaq Səni

*I want to praise You, Lord*



(: Alqışlamaq Səni istəyirəm mən :)
Öyrət axtarmağı Səni, ay Allah,
Minnətdaram Sənə.

**Quş səmada alqış oxuyur,**
**Ağac yerdə alqış oxuyur**
**Mənim duam, mənim səsim Sənə Allah.**

# 6. Allahım, Sən Nə Yaxşısan

(:Allahım, Sən nə yaxşısan, Allahım, Sən mehriban, Allahım, hüzuruna gəlirəm. :)
**(: Mən yalvardım Sənə, yaxınlaşdın Sən mənə**
**Möhtac ruhumu Sən qurtardın. :)**

## *7. Allahım, Allahım, Allahım*

**(:Allahım:)3x - izzətlən, izzətlən, Allahım.**
(:Təmiz-duru, dünyanın nuru, mənim Allahım.:)

**(:Allahım:)3x - mənim qüdrətli Allahım.**
(: Həyatın özü, dirilik sözü mənim Allahım.:)

**(: Sən qalib çıxdın, Allahım,**
**Sən izzətləndin, Allahım.:)**
(: Bütün qüdrətinlə, bütün izzətinlə,
Sən zəfər çaldın.:)

**(: İndi yaşayırsan, Allahım,**
**Sən indi sağsan, Allahım.:)**
(: Sən ümid verdin, Sən həyat verdin,
Sən işıq verdin.)[1] *Mənim Allahım (son)*[2]

## *8. Ata, Sənin Sevgin*

*Father God I wonder*

Ata, Sənin sevgin, nə qədər böyük və dərin
Sənsiz necə yaşadığımı, anlamıram mən.
Sən məni xilas etdin, mən Sənin övladın oldum
Və bütün həyatımda Səninlə qalıram.

**(: Sənə şükür edəcəm, Sənə səcdə qılacam**
**Sonsuzadək, ey Atamız :)**

## *9. Azad, Azad, Azadam*

Azad, azad, azadam; Şeytanın güc-qüdrətindən
Rəbb İsanın qanıyla; azad, azad, azadam!
**Xilas, xilas olmuşam mən; qulluqdan**
**Qurtulmuşam mən Rəbb İsanın qanıyla;**
**Azad, azad, azadam!**

## *10. Bağışla, Tanrım*

1. Qəlbim hər an Allahı axtardı;
   Neçə, neçə dinlərə əyildi.

**N: (: Bağışla Tanrım, bağışla İsa,**
**Mən Səni bu gün tanıdım :)**
(: Ürəyim, bu qəlbim Sənindir, İsa
Sən mənim, mən də Sənin olmuşam, Ata :)

2. Tanrım hər an bizləri çağırır,
   İsa, İsa, yeganə Allahdır.

## *11. Bütün Susayanlar*

Bütün susayanlar və zəiflər mənbəyə gəlin,
həyat suyundan için. Rəbbin mərhəmətində
təmizlənsin. Dərd və acılar; ürəkdən çağırırıq.
**N[1]: Gəl, Rəbb İsa, gəl (4x)**
**N[2]: Müqəddəs Ruh, gəl (4x)**

## *12. Bax, Taxtda Oturan Rəbbə*

1. Bax, taxtda oturan Rəbbə, üzü günəş kimi
   parlar. Gözləri alov, ayaqları bürünc,
   səsi axan sular kimi.

**N:Müqəddəs, Müqəddəs, Rəbb İsa Məsih**
**Müqəddəs, Müqəddəs, biz Sənə heyranıq.**

2. O, ilk və son, diri Olan, dünya üçün
   canı verdi. Sonsuzlaradək Rəbb yaşayacaq,
   ölümün gücünü uddu.

3. Böyük Şah İsa Məsihin, tə'rifləri yayılsın.
   Hər yaranan elan etsin, layiqdir Allahın Oğlu.

## *13. Bir-birinizin Yüklərini*

*$$D, Galatiyalılara 6:2, Yeşaya 53:4 , Yeşaya 53:5*

**N:Bir-birinizin yüklərini daşıyın**
**və bu yolla Məsihin qanununu icra edin.**

1. Əslində xəstəliklərimizi o çəkdi,
   Dərdlərimizi öz üzərinə götürdü.

2. Üsyankarlığımıza görə bədəni deşildi,
   Şər əməllərimiz naminə əzildi.

3. Bizim əmin-amanlığımız üçün cəza aldı,
   Onun yaraları ilə şəfa tapdıq.

## 14. Bu Dünya

1. (:Bu dünya beş günlük dünya, gəldi-gedər
yalan dünya. Dünyanın aldadıcılığı,
qeyb olar Sən gələn günü.:)

**Yeni dünya, yeni həyat, əbədi, həqiqi həyat**
**Tükənməz xoşbəxtlik, sevinc,**
**Başlanar Sən gələn günü.**

2. (:Sənin sevgin dəryadan dərin, günəş kimi
nurların Sənin. Yalvarıram nurlarını saç,
qoy olsun xalqımız xilas.:)

3. (:Allahım, keç günahımdan, Səndən özgəsinə
yox inam. Hər şeyə qadirsən, Atam,
yalnız Sənə mənim duam.:)

## 15. Cənnət Deyir

*Forever You will be*

1. Cənnət deyir, dirilmiş Rəbb izzətlidir
Kim de, çatar, Rəbbə gözəllikdə.

**N:Göylərdəki taxtda, Quzusan əbədi**
**İzzətlə başımı əyib həmd edirəm.**

2. Elan edirəm, dirilmiş Rəbb izzətlidir
Bizi Allaha, ölümüylə gətirən.

## 16. Bu Sözlərimi Eşidib

*$$D, Mt 7:24, Lk 6:47*

1. Bu sözlərimi eşidib onlara əməl edən hər kəs öz evini qaya üzərində quran ağıllı adama bənzəyir

**N:Yağış yağar, sellər gələr,**
**Yellər əsər, o evə hücum edər.**

**1b Amma - ev uçmaz,**
**çünki təməli qaya üzərində qurulub.**

2. Bu sözlərimi eşidib onlara əməl etməyən hər kəs isə öz evini qum üzərində tikən ağılsız adama bənzəyir. **N:**

**2b Ev uçar, ev uçar**
**və onun yıxılması bir müsibət olar.**

## 17. Cənnətin Qapısı

*Vahid Tağıyev*

1. Cənnətin qapısını açdın kasıblara, yorğunlara.
Öz yanına dəvət etdin, həyat verdin Sən onlara.

**N:Apar Rəbbim, apar məni dinclik yolla vətəninə. Fani dünya yorub məni, möhür basıb bədənimə.**

2. Bu gün bizə yol göstərir, önümüzə Məsih gedir
İşıq saçan nurlu yolda hər an Ona həmdlər edir.

# 18. Çörəyi Bölüb



*Speziamo il Pane*

1. Çörəyi bölüb, İsanın bədənini yeyirik
   Həyat Çörəyi - Rəbbin sevgisinin nişanı.

**N:Çox olduğumuz halda, biz bir bədənik**
**Çünki hamımız bir Çörəyi bölüb yeyirik.**

2. Şərab götürüb, İsanın qanından içirik.
   Bağışlanma üçün axıdılan qanından içirik.

# 19. Ehtiyatlı Olun

*$$D, Mt 6:1*

**Ehtiyatlı olun, siz saleh iş görəndə**
**bunu insanların önündə, onlara göstərmək**
**üçün etməyin! Yoxsa göylərdə Olan**
**Atanızdan mükafat almazsınız.**

1. Sədəqə verdiyin zaman önündə şeypur səsi ilə
   car çəkmə, amma sol əlin sağ əlinin
   nə etdiyini bilməsin.

2. Belə ki, verdiyin sədəqə gizli qalsın.
   Gizlində olanı görən Atan səni
   mükafatlandıracaq.

## *20. Ey Ata, Sevirəm Səni*

**1. Ey Ata,** sevirəm Səni (2x)
Mən Sənə söyləyirəm (3x) Sevirəm Səni.
**2. Ey İsa**...

**N: Mədhlər Sənə, Xilaskarım Allah**
**Həmd olsun Sənə, Nicatkarım İsa.**

**3. Müqəddəs Ruh**... **4. Ay qardaş/bacı**...

## *21. Ey Bütün Yorğunlar*

*$$D, Mt 11:28*

**Ey bütün yorğunlar və yükləri ağır olanlar,**
**Mənim yanıma gəlin,**
**Mən sizə rahatlıq verərəm.**
Mənim boyunduruğumu üzərinizə götürün,
və Məndən öyrənin, çünki Mən həlim
və qəlbən təvazökaram.

## *22. Əgər Biz Bir-birimizi Sevsək*

*$$D, 1 Yəh 4:12 4:7b*

Əgər biz bir-birimizi sevsək, Allah bizdə qalır,
və Onun məhəbbəti bizdə kamil olur.
**Sevən hər kəs də Allahdan doğulub,**
**və Allahı tanıyır.**

## 23. Əgər Mən İnsan (Məhəbbət)

1. (: Əgər mən insan və mələk dillərilə
Danışıb məhəbbətə malik deyiləmsə
Cingildəyən mis, səslənən sincə
Oxşaram mən.:)



**N: (: Məhəbbət səbirli, xeyirxahdır**
**Məhəbbət lovğalanmaz, öyünməz**
**Kobud davranmaz,**
**Pislik etməyi düşünməz**
**Hər şeylə barışar, hər şeyə inanar**
**Hər şeyə ümid bəslər,**
**Hər şeyə tab gətirər.:)**

2. (: Bütün sirləri bilirəmsə, dağları
Yerindən tərpətməyi bacarıramsa;
Varımı paylaramsa,
Mən heçəm məhəbbətim yoxsa.:)

## *24. Əzablıdır İnsan Bu Gün*

1. Əzablıdır insan bu gün, dünyanın hər yerində
Çəkil kədər qəlblərdən gün, gəlib böyük bir müjdə

**N:İztirablardan, ölüm hissindən,**
**İsa Məsih qurtarır**
**Günahı silir. O, həyat verir,**
**İsa Məsih bizi qurtarır**

2. Uşaqların harayını, kim eşidər gecələr
Qəm içində rahatlığı, könüllərə kim verər?

## *25. Gəl, Rəbb İsaya*

*Come, now is the time to worship*

Gəl, Rəbb İsaya həmd edək.
Gəl, indi ürəyini ver Ona.
Gəl, olduğun kimi gəl, indi.
Gəl, olduğun kimi gəl Rəbbə, gəl.

**Bir gün hər kəs deyəcək "İsa Rəbdir"**
**Bir gün hər kəs diz çökəcək.**
**Ən böyük xəzinə saxlayırsan**
**Səni tanıyanlara.**

## 26. Gəl, Gəl Bizə İmmanuel

1. Gəl, gəl, bizə İmmanuel,
   Allah bizimlədir İmmanuel
   Gözləyirik Səni,İmmanuel,
   Allah bizimlədir İmmanuel.

**N: (: Sevin, sevin, sevin Azərbaycan**
**İmmanuel sənə gələcək, sevin.:)**

2. Ey gözəl yurdum, Azərbaycan,
   Sən fəqət inan, İmmanuelə,
   Qurtarar səni, İmmanuel,
   Dinclik verər sənə, İmmanuel.

3. Alqışlar olsun, İmmanuelə,
   Diz çökün dostlar Rəbbimizə
   Çiçəklən yurdum, Azərbaycan,
   Həmdlər edin dostlar İmmanuelə.

## 27. Gəl, Rəbb İsa, Gəl

Gəl, Rəbb İsa, gəl; taxt qur ürəyimdə.
Sevginlə doldur-daşdır; olum tək Səninlə.

**(:Pıçılda qulağıma hikmətli sözlərini,**
**Elan edərəm dünyaya Sənin ucalığını. :)**

# *28. Gəl, Mənim Rəbbim*

1. Gəl, mənim Rəbbim, Sənə mən vurulmuşam
   Gəl, mənim Rəbbim, hardasan?
Gəl, mənim Rəbbim, Sənsiz mən yorulmuşam,
Gəl, mənim Rəbbim, hardasan?

**N[1]: (:Sənsiz, itmişdir gümanım,**
**Sənsiz açılmaz sabahım,**
**Sənsiz yox mənim həyatım - gəl.:)**

**N[2]: (:İsam səni çox sevirəm,**
**Mən hüzuruna gəlirəm**
**Yolunu çox gözləyirəm - gəl.:)**

# *29. Gələrsən, Gələrsən*

1. Gələrsən, gələrsən, heybətli güc-qüdrətinlə
Gələrsən, gələrsən, ey Müqəddəs Ruh gələrsən

**N:Mehri şəfqətli Allahsan, duamı eşidirsən**
**Daim Sənin hüzurundayam,**
**Susuzluğumu Söndürən**

2.Gələrsən, gələrsən,ey Müqəddəs Ruh, gələrsən
   Layiqsən, layiqsən, Allahın qurbanlıq Quzusu,
   Layiqsən, layiqsən, Şahların-Şahı layiqsən.



# 30. Göy Üzündə

1. Göy üzündə özünə, xəzinələr hazırla )[2]
Keçicidir bu dünya, sonsuz həyat Tanrıda )[3]

2. Məndə sonsuz həyat var, onu Məsihdən aldım)[2]
Mənə bir miras verdi, sonsuzadək daimi )[3]

3. Mənə verdiyi miras, yenidir heç çürüməz )[2]
Orda nə yas, nə ölüm, nə ayrılıq olacaq )[3]

4. İmanlılarla birgə olacağıq orada )[2]
Tanrımızın özü də, aramızda olacaq )[3]

# 31. Hey Ağlaya-ağlaya

*türk: Hep Ağlaya-ağlaya*

Hey ağlaya-ağlaya, ömrünü tükədəcəksən. )[2]
Gəl Rəbb İsanın yanına, göz yaşların silinsin.)[4]

Bu dünya fani bir dünya, hesab gününü unutma. )[2]
Gəl Rəbb İsanın yanına, günahı bağışlayana. )[4]

Köləlikdən bezmədinmi, günahdan iyrənmədinmi?)[2]
Gəl Rəbb İsanın yanına, azad edər insanı. )[4]

Sən gerçəyi bilməmisən, diri sudan içməmisən.)[2]
Gəl Rəbb İsanın yanına, ölü ürəyin dirilsin.)[4]

## 32. *Həmişə Sevinin*

*Fil 4:4, Yehudilərin himni*

**Rəbdə həmişə sevinin!**
**Bir də deyirəm: Sevinin! Sevinin!**
**Rəbdə həmişə sevinin!**
Qoy sizin mülayimliyiniz insanlara
məlum - məlum olsun, Rəbb yaxındır! *lalala....*

## 33. *Hər Zaman*



1. (: Hər zaman mehriban, xeyirxah,
Əbədi, Allahımsan mənim. :)

**N:Sevirəm Rəbbim Səni mən,**
**Çünki Sən əvvəl Özün məni sevdin,**
**Sözünü göndərdin mənə,**
**Xilas əhdin üçün şükürlər Sənə.**

2. (: Yer cahan və səma şadlanır,
Əbədi Müqəddəs adına. :)

## 34. *Xeyir-dua*

**Rəbb, ona xeyir-dua ver. (4x)**
**Öz sülhünlə onu qoru. (4x)**
**(:Məhəbbətini onun ürəyinə qoy,**
**onunla ol.:) (2x)**

# *35. Hər Zaman Mən Sevəcəm*

*I will love You*

Hər zaman mən sevəcəm səni,
Hər zaman qoruyaram,
Heç vaxt tərk etmərəm səni,
Hər zaman mən səninləyəm.

Mənim sevgim aparar səni,
Səmada uçan quşlardan da yüksəklərə,
Ən uzaq axan çaylardan uzaqlara,
İstərəm sevgimi tanıyasan.

# *36. Xəyalım Dolanır*

1. Xəyalım dolanır ötən illərdə
   Yuxu kimi gəlir o günlər mənə.

**N: Nə qədər uzaq idim, İlahi, Səndən**
**İndi o illər üçün utanıram mən.**

2. İndi Sənin əlində mənim hər anım
   Rəbbimlə yaşayır fikir-xəyalım.
   Açılmaz heç zaman Sənsiz sabahım
   Gözlərəm yolunu intizarla mən.

## *37. İsa Ən Uca Addır O*

*Jesus Name Above All Names / Emmanuel*

İsa ən uca addır O, gözəl Xilaskar, canlı Tanrı.
İmmanuel, Allah bizimlədir,
Bizim Xilaskar, canlı Sözdür.

**N:İmmanuel, İmmanuel,**
**Onun adı İmmanuel.**
**Tanrı bizdə, qəlbimizdə,**
**Onun adı İmmanuel.**



## *38. İnanırıq Məsihsən*

1. İnanırıq Məsihsən, göylərdən enmisən
   Azad etmək üçün bizi, al qanını tökmüsən.

**N: Günah qanınla bağışlanır, xəstə yaranla**
**Sağalır, ümid tək sənə bağlanır,**
**Ruhum tək səni arayır.**
**Günah qanınla bağışlanır, xəstə yaranla**
**Sağalır, ümid tək sənə bağlanır Sənə.**

2. Minnətdaram Rəbb İsaya bizə həyat verənə
   Dünyanın əzabından bizi azad edənə.

3. Adınla tövbə etdik, Xilaskar tək tanıdıq
   Qəlbimizdə məkan sal, ömürlük bizimlə qal.

## 39. *İlahi Əlində*

1. İlahi əlində yaşamaq olar, bu əlin arxadır
hər yerdə. Əbədi həyatı, sülh və dincliyi,
hər kəsə yeni ürək verir

N: **Mənim xoşbəxtliyim Sənin əlində,**
**Sənə arxayınam, ay Allah!**
**Mənim xoşbəxtliyim Sənin yanında,**
**Sənə oxuyuram, ay Allah!**

2. İlahi əlində sevinmək olar, əllərin nemət
bəxşiş verir. Günahlarımdan keçirsən orda
məzəmmət, töhmət yoxdur daha.

3. İlahi əlində ağlamaq olar, bu əlin qisas almaz
heç vaxt. Mıxların izləri çarmıx yerində,
insanın şəri bağışlandı



## 40. *İsa Dirildi*

(: Dadın, duyun və görün Allahın yaxşılığını
Ona iman edənlər, pak və bəxtiyardırlar.:)
**İsa dirildi, İsa dirildi, Alleluya!**
**Qələbə çaldı şeytana Rəbbim! Alleluya!**
**Nəğmə oxuyub biz şadlanarıq Alleluya!**
**İsa dirildi, İsa dirildi Aleluya!**

## *41. İsa, Həyatları Dəyişir*

1. (: İsa həyatları dəyişir, dostlar,
axtar Onun üzün hələ ümid var. :)
(: Qaldır əllərini, izzət ver Ona,
Qoy Ruhu tökülsün sənin ruhuna. :)

**N: (: Sevinclə dolarsan hüzurunda sən**
**Atanın önünə hər səhər gəlsən. :)**

2. (: Yaxınlaş sən Ona - O yaxınlaşar,
Rəbbin məhəbbəti qəlbində daşar. :)
(: Bütün varlığınla Rəbbi axtarsan,
Getdiyin yollarda uğur taparsan. :)

## *42. İsa Məsih, Tanrının Oğlu*

İsa Məsih, Tanrının Oğlu, Həyat Bulağı
İsa Məsih, Tanrının Oğlu, Həyat Bulağı
(: Əllərimi Sənə qaldırıram mən
Bütün ürəyimlə şükür edirəm.:)



İsa Məsih, Tanrının Sözü, Həyat Bulağı
İsa Məsih, Tanrının Sözü, Həyat Bulağı
(: Sənin naminə günahdan ayrıldım
Bütün qəlbimi Sənə tapşırdım.:)

## 43. İsa Padşahdır

*Jesus Christ is Lord*

(: İsa Padşahdır :) 3x - bu aləmdə

Onun adı hamıdan böyük, Onun taxtı
ən ucadır! Onun qanı şeytanı əzdi,
Rəbbimiz İsa Padşahdır!



## 44. İsa, Çörəyimsən

1. İsa, çörəyimsən, İsa, şərabımsan,
   İsa, hüzurumsan, həyatım,
   Ümidimsən mənim.

2. İsa, yolumsan, İsa, işığımsan,
   İsa, Rəbbimsən, sevincim, gücümsən mənim.

## 45. İsa, Tanıdın Məni

*SK: Ježiš, Ty si ma poznal, M: $$D*

1. İsa, tanıdın məni, İsa, bağışladın məni,
Rəbbim, sevirəm Səni, Tanrım, alqışlayım Səni.

**Bilirsən günahımı, Qaldırırsan canımı,**
**Göstərdin mənə mərhəmətini.**

2. Xəstələrin həkimə ehtiyacı var,
   Mənim Sənə ehtiyacım var.

# 46. İndi və Həmişə

$$D

1. Ey Rəbbimiz, bütün kainatın Tanrısı,
Sən xeyir-dualısan. Çünki səxavətin sayəsində
biz torpağın bəhrəsi və insan zəhmətinin
səmərəsi olan, bu çörəyi almışıq.
Onu Sənə təqdim edirik ki,
Bizim üçün həyat çörəyi olsun.



**N: (: İndi və həmişə Allaha şükür edək**
**İndi və həmişə Sənə şükür edək :)**

2. Ey Rəbbimiz, bütün kainatın Tanrısı,
Sən xeyir-dualısan. Çünki səxavətin sayəsində
üzüm tənəyinin meyvəsi və insan zəhmətinin
səmərəsi olan, bu şərabı almışıq.
Onu Sənə təqdim edirik ki,
Bizim üçün ruhani içəcək olsun.

# 47. İsa Ölüb Dirildi

İsa ölüb dirildi, Alleluya, qədim ilan əzildi,
Alleluya! Qalib çıxdı Məsihim, Alleluya.
Təsdiqləndi ümidim, Alleluya,
**(:Alleluya, Alleluya:)**

## *48. Kədər Yüklü Yolda*

O gün Qüds şəhərində, O kədər yüklü yolda
Görəvlilər yol açmağa çalışdı, lakin o xalq
ölümə məhkum ediləni görməliydi.
Döyülmədən bədəndə qanayan izlər vardı.
Başındakı tikanlar bir tacdı. Gözü yaşlı simalar
Onun qəlbini dərindən sarsdı

**N:Kədər yüklü yolda o gün qüdsi İsa Məsih**
**Qurban Quzusu olaraq yeriyirdi.**
**Sənə və mənə olan sevgisindən**
**O bu yolu, acı dolu olsa belə seçdi,**
**geri dönmədi.**

Xaça çəkdikləri o an əzab çəkən anda
Məsih sevgiylə insanlara baxdı.
Son nəfəsini verərkən
"Ata, Sən onları bağışla" dedi.
Bütün insanlığa
tökülmüş olan
o qan Mükəmməl
planında qurtuluş
oldu **N:**



## 49. *Qolyat Cəngə Çıxdı*

Qolyat cəngə çıxdı, Davud ondan heç qorxmadı)$^2$
(: Allahın adı ilə onu, bir dənə daş ilə öldürdü:)

Şeytan qarşıma çıxsa,mən ondan heç qorxmaram)$^2$
(:İsanın adı ilə onu, ancaq bir söz ilə yıxaram:)

## 50. *Kainata Nur Saçan*

1. Çətin anımda gəldin köməyimə
   Xilas etdin məni, əzablı həyatdan
(: Sən həyatımsan, Sən ümidimsən
   Döyünən ürəyim, Allahımsan mənim. :)

**N:Kainata nur saçan, ulduzlara işıq verən,**
**Ürəklərə məlhəm çəkən,**
**Nurlu İsamsan mənim.**

2. Olmazsan peşman, etdiyin tövbədən
   Alarsan İsadan, əbədi həyatı.
   (: Verildi əzəldən,
   Sonsuz məhəbbəti,
   Seçmişdi dünyadan,
   seçilmişlərini. :)



# 51. Kədərimdə Sevincimsən

*(All in All; Jesus, Lamb of God)*

Kədərimdə sevincimsən, zəifliyimdə gücümsən
Mənim həyatımsan
Hüzurunu axtarıram, Səninlə sülh tapıram mən
Mənim dövlətimsən



**N: İsa, Həmd Sənə**
**Tanrının Quzusu**
**İsa, Həmd Sənə**
**Layiqdir adın.**

## >> Mən Zəifkən Sən gücümsən

1. Mən zəifkən Sən gücümsən,
Axtardığım xəzinəmsən, mənim hər şeyimsən.
Sənin dəyərin ölçülməz, Rəbb, Səndən əsla
Dönmərəm, mənim hər şeyimsən.

**N:(: İsa – Tanrı Quzusu, həmdə layiqsən! :)**

2. Günahım, utancımı aldın,
Yerimə öldün, dirildin, mənim hər şeyimsən.
Yıxılanda qaldırarsan, susayınca doldurarsan,
Mənim hər şeyimsən.

# 52. Qoy Mənim Sözlərim

(: Qoy mənim sözlərim
və mənim bütün fikirlərim
Sənə həmd etsin mənim Rəbbim. :)

**Yolların yolumdan daha ucadır,**
**Fikirlərin fikirlərimdən uca**
**Sənin iradəni axtarıram,**
**İnanıram mən Allahın planına.**



# 53. Qəlbimi Pak Et

*Refiners Fire*

1. Qəlbimi pak et, qızıl kimi et
və gümüş kimi.
Qəlbimi pak et, qızıl kimi et - saf qızıl.

**N: Pak edən atəş, qəlbimin tək istəyi**
**(:Müqəddəs olmaq,**
**Sənə candan həsr olmaq :)**
**Rəbb İsa - istəyinə, görə.**

2. Qəlbimi saf et, içdən təmizlə,
və müqəddəs et.
Qəlbimi saf et, günahımı al hamısını.

## *54. Lazımsan Mənə*

*I Need You More*

Lazımsan mənə - ötən gündən də çox
Möhtacam Sənə - yox-yox Sənə sözüm
Lazımsan mənə - hər şeydən də çox
Möhtacam Sənə - lazımsan mənə

**Bu mahnıdan da çox, nəfəsimdən də çox**
**Ürəyimdən də çox, hər şeydən də çox**
**Zaman ötüb keçir, Səninləyəm Tanrım,**
**(:İstəmirəm Tanrım, geriyə dönüm:)**
...geriyə dönüm

## *55. Məhəbbətin*

**(: Məhəbbətin ömürdən gözəldir. :)**

Dodaqlarımla və ürəyimlə
mən alqış oxuyuram Sənə.
Əllərimi mən sənə uzadıram
və alqış oxuyuram Sənə.



## 56. Mədh Eləyin

**N: (: Mədh eləyin asimandakı Pərvərdigarı**
**Mədh eləyin Rəbbi Mədh eləyin! :)**

1. Rəbbi, heybətli, qüdrətli, işləri üçün
   Mədh eləyin! Rəbbi hamıdan üstün olan
   Adı üçün həmd söyləyin!

2. Sevin! Gözəl sazla, ney, kamança,
   Mədh eləyin Rəbbimizi!
   Sevin! Dəflə, tarla, milli rəqslə
   Mədh eləyin Rəbbimizi!

3. Sevin! Məharətlə, nağarayla,
   Mədh eləyin Rəbbimizi!
   Sevin! Yeni nəğmə, şən səslərlə
   Mədh eləyin Rəbbimizi!

## 57. Məni Sevdin Rəbb

*Beni sevdin Rab*

Məni sevdin Rəbb, elə sevdin ki,
Vahid Oğlunu verdin Sən.
Mən günahkarkən, qaranlıqdaykən,
Məsih mənim üçün öldü.
**(: Planın tamamlandı, günahım bağışlandı**
**Çarmıxda hər şey yeniləndi. :)**

# 58. Məhəbbət, Çox Qüdrət

More Love, More Power

(:Məhəbbət, çox qüdrət,
həyatımda Səndən olsun.:)

**Sənin adını bütün qəlbimlə,**
**Sənin adını bütün canımla,**
**Sənin adını bütün gücümlə,**
**Ucaldaram, ucaldaram.**



# 59. Məni Al Qollarına

1. Məni al qollarına,
   Qoy duyum qəlbinin səsini,
   Pıçılda anlat mənə,
   Səni tanımaq istəyirəm.

**N: (: Sənin gözəlliyini seyr etmək.**
**Ömrümü evində keçirmək**
**Yollarımda Səni izləmək,**
**Rəbb tək diləyim bu’:)**

2. Üzünü axtarıram,
   Ümidim Səndə Rəbbim,
   Əlimi tut, buraxma,
   Səni tanımaq istəyirəm.



## *60. Mənim Üçün*

Mənim üçün qızıldan da baha, almazdan da
Qiymətli. Görünüşün yaqutdan da gözəl,
Böyük Rəbbim Allahım.

**Səndən başqa Xilaskarım yox**
**Səndən başqa ümid yerim yox**
**Səndən başqa qüvvət verənim yox**
**Yalnız Rəbbim Allahım**

## *61. Məsihin Qəlbi*

*Mətn: qədim dua, $$D*

Məsihin qəlbi, məni təqdis et.
Məsihin Bədəni, məni xilas et.
Məsihin Qanı, məni suvar.
Məsihin qabırğasından axan su, məni yu.
**Məsihin əzabları, məni möhkəm edin.**
**Ey xeyirxah İsa, məni eşit.**
Yaralarında məni gizlət.
Qoyma Səndən uzaqlaşım.
**Şər düşməndən məni qoru.**
**Ölüm saatımda məni çağır**
və Yanına gəlməyi mənə əmr et ki,
Sənin müqəddəslərinlə
Səni əbədi olaraq mədh edim.

## 62. Məsih Dirildi

Məsih dirildi ölülər içindən,
Ölümü ölümlə yox edərək,
Məzarda olanlara həyat verdi.



*Yunanca:Xristos anesti / Ek nekron / Thanato thanaton patisas / Ke tis en tis mnimasin / zoin xarisamenos.*

## 63. Məzmur 1 / Pislərin

*musiqi: Aysel Quluzadə*

1. Pislərin məsləhəti ilə getməyən,
   Günahkarların yolunda dayanmayan,
   Rişxəndçilərin arasında oturmayan
   **insan nə bəxtiyardır!**

2. O ancaq Rəbbin Qanunundan zövq alar,
   Gecə-gündüz bu təlimatı **dərin düşünər**.

4. Pis adamlar belə deyil,
   onlar ancaq - yelin sovurduğu
   saman çöpünə bənzər.

# *64. Məzmur 19 / Göylər*

*$$D*

1. Göylər Allahın əzəmətini bəyan edir,
   Göy qübbəsi əllərinin işini elan edir.
   Hər gün ertəsi günə nəql edir,
   Hər gecə o biri gecəyə bilik verir.

**N[1]:Rəbbin qanunu kamildir, canı təzələyir**
**Rəbbin öyüdü etibarlıdır.**
**Nadanı müdrik edir. Rəbbin qayda-**
**qanunları düzdür, ürəyi sevindirir**
**Rəbbin əmrləri pakdır, gözləri aydın edir.**

2. Kim öz səhvlərini duya bilər?
Məni gizli təqsirlərimdən təmizlə, məni təmizlə
Qulunu aşkar günahlardan qoru,
Qoyma onların hökmü altında qalım.

**N[2]:Rəbb qorxusu safdır, əbədi yaşayır**
**Rəbbin hökmləri haqdır, hamısı ədalətlidir.**
**Onlar qızıldan, bol miqdarda olan**
**saf qızıldan da çox sevilir**
**Onlar baldan, şanı balından da şirindir.**
**Bəndən bunlardan nəsihət alar.**

# *65. Məzmur 22 / Ey Allahım*

1. Ey Allahım, Allahım, niyə məni tərk etdin?
Niyə ah-zarımdan uzaq durursan,
Mənə imdad etmirsən? Ey Allahım, gündüz
çağıranda mənə cavab vermirsən,
Gecə rahatlığım yoxdur…

**N: Nə qədər Müqəddəssən, İsrailin**
**Həmdləri üzərində taxt quran Sənsən**

2. Lakin mən torpaq qurduyam, insan deyiləm,
Adamların tənə hədəfiyəm. Xalq mənə
xor baxır. Məni hər görən lağ edir, başını
yırğalayıb belə deyir:
«Qoy güvəndiyi Rəbb onu azad etsin,
Rəbb ondan razı qalıb, onu xilas etsin!»



3. Ayaqlarımı, əllərimi deşdilər,
Sümüklərimi saya bilirəm,
Aralarında paltarlarımı bölüşdürürlər,
geyimim üçün püşk atırlar.

4. Ya Rəbb, uzaq durma,
Ey mənim Qüdrətlim, dadıma tez çat!
İsmini qardaşlarıma elan edəcəyəm,
Camaat arasında Sənə həmd söyləyəcəm.

# 66. Məzmur 23 / Rəbb Mənim Çobanımdır

*$$D, Tural*

1. Məni yaşıl çəmənlərdə dincəldir,
   Sakit sular kənarında gəzdirir.
      Məni yenə də canlandırır,
      Salehlik yolları ilə aparır.

**N:Rəbb mənim Çobanımdır, möhtac olmaram, ölüm vadisində gəzsəm də, şərdən qorxmaram.**

2. Mənə düşmən önündə süfrə açırsan,
   Ətir çəkib başıma, eşqlə doldurursan.
      Ömrü boyu məhəbbətdə qalacam,
      Həyat boyu Rəbdə yaşayacam.



# *67. Məzmur 36 / Şər Pis İnsanın*

1. Şər pis insanın ürəyinə pıçıldayır,
Onun gözündə Allah qorxusu yoxdur
Öz gözündə özünü yüksək tutur,
Nə təqsirini görür, nə də ona nifrət edir.

**Ya Rəbb, məhəbbətin göylərdədir,**
**Sədaqətin asimanı bürüyür**

2. Dilindən fitnə-fəsad düşmür,
Müdrik, xeyirxah əməllərdən əl çəkib.
Yatağında fitnələr barədə fikirləşir,
Pis yolda dayanır, şər işlərdən ikrah etmir.

**Dağlar kimi salehliyin uludur,**
**Dərya kimi ədalətin dərindir.**

2. Ey Allah, məhəbbətin nə qədər qiymətlidir
Bəşər övladları qanadlarının kölgəsinə sığınır.

**Həyat mənbəyi Səndədir,**
**Biz Sənin nurunla görə bilirik.**

# *68. Məzmur 37 / Rəbbə Güvən*

1. Pislik edənlərə görə narahat olma,
   Fitnəkarlıq edənlərə qibtə etmə.
   Tezliklə onlar ot kimi quruyacaq,
   Yaşıl çəmən kimi tez solacaq.

**N:Rəbbə güvən, yaxşılıq et,**
**Bu diyarda arxayın ömür sür.**
**Rəbdən zövq al,**
**Ürəyinin istəklərinə O çatdıracaq.**
**Yolunu Rəbbə ver, Ona güvən, O edəcək.**

2. Rəbb sənin salehliyini nur kimi aydınlaşdıracaq,
   Həqiqətini gündüz günəşitək çıxaracaq.
   Rəbbin hüzurunda sükut et, Onu gözlə.
Uğur qazanan hiyləgər insan üçün narahat olma.

***K:Qəzəbi at,***
***Hiddətdən çəkin,***
***Narahat olma,***
***Bunlar insanı***
***Şərə salar.***



## *69.* Məzmur 40 / Lalalay

1. Rəbbi səbr edərək gözlədim, mənə tərəf dönərək fəryadımı eşitdi. O məni çamırlı quyudan, lilli bataqlıqdan çıxartdı.

**N: Lalalay...**

2. Ayağımı qaya üzərində bərkitdi, O hər addımımı möhkəm etdi. Dilimə yeni bir nəğmə verdi, ilahi ilə Allahımıza həmd etdim. **N:**

*Ya Rəbb, lütfünlə məni xilas et! Ya Rəbb, dadıma tez çat!*

## *70.* Məzmur 42 / Könlüm

**N:Maral axar sulara həsrət qalan kimi,
Ey Allah, könlüm Sənin həsrətini çəkir!**

*(Ey Var Olan Allah, mənim qəlbim Sənin üçün susayıb)*

1. Mənim qəlbim, niyə qırılmısan?
Axı niyə bu köksümdə təlaşlanırsan?
Ümidini yenə Allaha bağla,
Qoy Allaha — məni qurtarana şükür edim.

2. Dərin suları çağırdı
Sənin ləpələrin dalğaların başımdan aşdı,
Rəbb mənə gündüz məhəbbət göstərir,
Gecə isə dua və ilahi dilimdən düşmür.

# 71. Məzmur 51 / Məhəbbətinə

**N: Məhəbbətinə görə, ey Allah,**
**Mənə rəhm et, bol mərhəmətinə görə**
**Qanunsuzluqlarımı sil. Təqsirimi tamamilə**
**Yu, günahımdan məni təmizlə.**

1. Çünki qanunsuzluqlarımı bilirəm,
   Günahım daim gözümün qarşısındadır.
   Sənə, yalnız Sənə qarşı günah işlətmişəm,
   Gözündə pis sayılanı etmişəm.

2. Sənsə ürəkdə düzlüyün olmasını istəyirsən,
   Mənə daxilən hikmət öyrət.
   Məni zūfa ilə pak et, təmiz olum,
   Məni yu, qardan da ağ olum.

3. Mənə şadlıq, sevinc səsini eşitdir,
   Qırdığın sümüklərim xoşhallansın.
   Üzünü tut, günahlarımı görmə,
   Bütün təqsirlərimi özün sil.



4. Ey Allah, məndə təmiz ürək yarat,
   Daxilimə yenidən sədaqət ruhunu ver.
   Məni Öz hüzurundan atma,
   Müqəddəs Ruhunu məndən götürmə.

# 72. Məzmur 57 / Rəhm Et

$$D

1. Mənə rəhm et, ey Allah, mənə rəhm et!
   Canımı götürüb Sənin yanına
   Pənah gətirmişəm.

**N:Ey Allah, qəlbim Sənə**
**(Möhkəm bağlanıb)² Qoy ilahi oxuyum,**
**Səni tərənnüm edim. Ey mənim ruhum,**
**Oyan! Qoy səhəri oyadım!**

2. Bəlalar keçib-gedənəcən (gedənəcən),
Qanadlarının altına sığınacağam (sığınacağam).

3. Allah-Taalanı çağıracam (çağıracam),
   Mənim üçün hər şeyi verən Allahı çağırıram.



# 73. Məzmur 59 / Pənahımsan

$$D (SK: Si mojou skrýšou)

Qüdrətini tərənnüm edəcəyəm,
Sübh tezdən məhəbbətini mədh edəcəyəm.
Sən mənə Qala olmusan,
Dar günümdə mənim pənahımsan, Ey mənə
Qüvvət verən, Səni tərənnüm edəcəyəm.

# 74. Məzmur 63 / Məhəbbətin

1. Ey Allah, mənim Allahım Sənsən,
   Sənin üçün yaman qəribsəmişəm.
   Quraq, cansıxıcı, susuz bir diyarda
   Sənsiz könlüm susuzdur.

2. Bütün varlığımla həsrətini çəkirəm,
   Müqəddəs yerdə Səni seyr edirdim,
   Qüdrətini, əzəmətini görürdüm,
   Mənim dilim Səni tərənnüm edir.

**N:Məhəbbətin bu həyatdan gözəldir,**
**Adın adlardan güclüdür,**
**Mərhəmətin günahlardan böyükdür.**

3. Bütün ömrüm boyu, Allahım,
   Sənə alqış edəcəyəm.
   Əllərimi qaldırıb adınla,
   Səni səsləyəcəyəm.

# 75. Məzmur 88 / Ya Rəbb

$$D

***N:* Ya Rəbb, ey məni qurtaran Allah,**
***Gecə-gündüz Sənə yalvarıram!***
***Qoy duam Sənə çatsın, qulaq as naləmə.***

1. Bəlalardan canım boğazıma gəldi,
Həyatım ölülər diyarına yaxınlaşır.
Qəbrə düşənlərin içində sayılıram,
Sanki məndə taqət qalmayıb.



2. Elə bil ölülər içinə
düşmüşəm,
Yaddaşından
silinmişəm,
Köməyindən
əlimi üzmüşəm,
Məzarda yatan meyidlər kimiyəm.

3. Mən isə, ya Rəbb,
Səni imdada çağırıram,
Duam hər səhər
hüzuruna qalxır.
Ya Rəbb, niyə məni rədd edirsən?
Niyə məndən üzünü gizlədirsən?

## *76. Məzmur 103 / Rəbbə Alqış*

*Tural, $$D*

1. Odur bütün təqsirlərimi əfv edən,
   Odur xəstəliklərinə şəfa verən,
   Odur səni məzardan xilas edən,
   Yalnız odur məhəbbəti sənə tac edən
        Odur ömrün boyu səni doyuduran
        Səni gümrah qartallara oxşadan
   Odur miskinlərə ədalətlə hökm edən
   Yollarını, əməllərini bizə göstərən

**Rəbbə alqış et ey könlüm, Rəbbə alqış et**
**Ey ruhum. Ey bütün varlığım, ey canım**
**Rəbbə alqış et. 2x**

2. Rəbb rəhmli və lütfkardır,
   Bol məhəbbətli və çox səbirlidir,
   Həmişə cəzalandırmaz, qəzəbi qalmaz
   Bizimlə günahlarımıza görə davranmaz
        Göylər yerdən nə qədər ucadırsa
        Sevgisi böyükdür Ondan qorxuruqsa
   Nə qədər şərqi qərbdən uzaqlaşdırıbsa
   Bizi də uzaqlaşdırıb qanunsuzluqlardan.

# 77. Məzmur 121 / Gözlərim

*Psalm 121 - I Lift My Eyes Up*

Gözlərim dağlara tərəf dikmişəm, köməyim hardan gəlir? Köməyim Səndədir, göylərdə Olan, Yeri də Yaradan.

**Ah necə lazımsan, yeganə ümidimsən**
**Duam Səndədir, Rəbbim! Xilas olmaq üçün,**
**Səni gözləyəcəm, gəl, mənə həyat ver!**

# 78. Məzmur 139 / Hara Gedim?

1. Hara gedim ki, Ruhun orada olmasın?
Hara qaçım ki, hüzurunda olmayım?
Əgər göylərə çıxsam — Sən oradasan,
Ölülər diyarında yatsam — Sən oradasan.

**Bg: Qanad alıb gündoğana uçsam belə**
**Dənizi keçib günbatana qonsam belə**
**N: Sənin sağ əlin bələdçim olacaq,**
**Sağ əlin məni qoruyacaq.**

2. Desəm də: «Qoy zülmət məni bürüsün,
İşıq batsın, ətrafım gecəyə dönsün»
Sənin qarşında zülmət batar,
Önündə gecə də gündüz kimi nur saçar.

3. Fikirlərinin qiyməti çoxdur, onların sayı-hesabı yoxdur, saysaydım onları, qum dənələrindən çox olardı,
oyanda yenə mən — Səninləyəm.

## *79. Mühakimə*

**N: Mühakimə bundan ibarətdir ki,
Dünyaya nur gəldi, amma insanlar
Qaranlığı nurdan daha çox sevdilər,
Çünki əməlləri şər idi.**

1. Pislik edən hər kəs nura nifrət edər,
Əməllərinin üzə çıxmaması üçün
Nura tərəf gəlməz
2. Həqiqətə əməl edənsə nura tərəf gələr ki,
Əməllərini Allah naminə etdiyi bəlli olsun.

*K: Yol, Həqiqət və Həyat Mənəm.
Mənim vasitəm olmadan
heç kim Atanın yanına gələ bilməz.*

## *80. Minnətdaram Sənə İsa*

1. Minnətdaram Sənə İsa, minnətdaram
O çarmıxda. **(:Mənə görə tökülən qana;
Günahımı yuyan qana:)**
2. Minnətdaram mən lütfünə, minnətdaram
Səndə olan bol sevgiyə. **(:Sənə olan
Bu sevgimi tükənməz et, tükənməz et:)**
3. Mənə qüdrət, məhəbbət ver,
Nəfsə hakim, cəsarət ver.

## *81. Müqəddəs Ruh Gəl*

*Come Holy Spirit*

(: Müqəddəs Ruh gəl, hüzurunda olmaq
İstəyirəm, doldur izzətinlə və məndə yaşa:)
**(: Sən həyat suyusan, əbədi mənbəsən**
**Təsəlli verənsən, arxanca apar məni:)**

## *82. Müqəddəs Ruh Gəl, Yu*



1. Müqəddəs Ruh gəl, yu təmiz olmayanı,
Müqəddəs Ruh gəl, islat quruyub qalanı,
2. Sağalt zərər dəyəni, yumşalt qəddarlaşanı,
Qızdır üşüyüb donanı, düz yola qoy azanı.
3. Müqəddəs Ruh gəl, əzabkeşə rahatlıq ver,
Müqəddəs Ruh gəl, ağlayana təsəlli ver.
4. Yeddiqat müqəddəslik ver,
Heyrətamiz mükafat ver,
Xilasedici çıxış ver və əbədi səadət ver.

## *83. Müqəddəssən*

Qaranlıq vadidə gəzsəm də mən, qorxmuram heç pislikdən. (:Çünki Sən Rəbbim mənimləsən Həyatlıq suyum Sən Rəbbim.:)
**(: Atamız Allah, Rəbbimsən İsa,**
**Dincliyim Müqəddəs Ruh. :)**

# *84. Müqəddəs Ruh, Toxun*

1.Müqəddəs Ruh, toxun mənə,
Toxun şəfa verən əllərinlə.
Ağuşuna al möhkəm məni,
Bas bağrına, pıçılda qulağıma.
**N:(: Sevirəm, sevirəm, sevirəm Səni:) 2x**
**Sevirəm! Dolmaq istəyirəm**
**Səninlə,duymaq istəyirəm Səni mən.**
2. Müqəddəs Ruh, doldur məni,
Doldur nurunla, sınmış qəlbimi.
Yeni nəğmələr qoy dodağıma
Sənə hər zaman oxuyum sevinclə.

# *85. Müqəddəs və Məsh Edilmiş*

*Holy and Anointed One*

İsa - İsa - Müqəddəs və məsh edilmiş, İsa.
İsa - İsa - Dirilmiş və ucalmışsan, İsa.

**Adın bal kimidir**
**Ağzımda,**
**Ruhun su kimidir**
**Qəlbimdə**
**Sözün bir çıraqdır**
**Yolumda,**
**Səni sevirəm Rəbb İsa.**



# *86. Nə Bəxtiyardır*



$$D

1. Nə bəxtiyardır ruhən yoxsullar!
Çünki Səmavi Padşahlıq onlarındır.

Nə bəxtiyardır yaslı olanlar!
Çünki onlar təsəlli tapacaq.

**N:Bəxtiyar — Sənə güvənən!**
**Bəxtiyar — Yolların ilə gedən!**

2. Nə bəxtiyardır həlimlər!
Çünki onlar yer üzünü irs alacaq.

Nə bəxtiyardır salehlik üçün acıb-susayanlar!
Çünki onlar – həqiqətən doyacaq. **N:**

3. Nə bəxtiyardır mərhəmətli olanlar!
Çünki onlara mərhəmət ediləcək.

Nə bəxtiyardır ürəyi təmiz olanlar!
Çünki onlar Allahı görəcək. **N:**

4. Nə bəxtiyardır sülh yaradanlar!
Çünki onlar Allahın övladları adlanacaq.

Nə bəxtiyardır
Salehlik uğrunda təqib edilənlər!
Çünki Səmavi Padşahlıq onlarındır. **N:**

## 87. O Yaşayır!

1. (: O Yaşayır! :) 4x

**N: (: Rəbb İsa azad edər,**
**Sonsuz xoşbəxtlik, həyat verər! :)**

2. Bizi sevir... 3. İsa gəlir.....
4. Maranata...... 5. Alleluya.....

## 88. Olduğun Yerdə

*$$D, Gen Rosso – Dove Tu sei*

Olduğun yerdə — həyat qayıdır,
Gəzdiyin yerdə — səhralar canlanır,
Baxdığın yerdə — göylər gözəlliyi var.
Sülh verənsən, təsəlli verənsən,
Olduğun yerdə, olduğun yerdə.

## 89. Pərvərdigar

(: Bəxt həyat tək Səndədir; itmiş, çarəsiz idim
Möcüzəli bir yol başladı.
Dayağım oldu bir dost; həyatımı dəyişdi,
Vəfalı, pak və müqəddəs. :)

**(: Pərvərdigar, Pərvərdigar,**
**Allahın qurbanlıq Quzusu!**
**Pərvərdigar, Pərvərdigar,**
**Göylərdən gələn Nicatkar. :)**

# *90. Rəbbi İzzətləndirin*

*Dan. 3, 57-88. 56. $$D, music:* طلبة مريم العذراء

(: Kyrie eleison, Xriste eleison. :)

1. Rəbbin bütün işləri, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin.
Rəbbin mələkləri, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin.
Göy qübbəsi, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin.

**A:Günəş və ay, göydəki ulduzlar,**
**Hər bir yağış, şeh və külək**
**Atəş və hərarət ***
**Mədh edin, Onu tərifləyin. hmm**

2. Soyuq və bürkü, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin.
Şehlər, qırovlar, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin. •
•Gecələr, gündüzlər, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin.

**B:İşıq, qaranlıq, buz və şaxta,**
**Qırov, qar, ildırımlar, buludlar ***
**•Bulaq<u>lar</u>, dənizlər və çaylar,**
**Mədh edin, Onu tərifləyin.  hmm**

3. Qoy yer üzü Rəbbi izzətləndirsin, *
Qoy mədh etsin, Onu tərifləsin. •
•Qoy dağlar, təpələr, Rəbbi izzətləndirsin, *
Qoy mədh etsin, Onu tərifləsin.
Qoy hər bitən şey, Rəbbi izzətləndirsin *
Qoy mədh etsin, Onu tərifləsin. •

**C:Balina<u>lar</u> və sularda qaynaşan məxluqlar**
**Göy qübbəsində uçan bütün quşlar ***
**Vəhşi heyvanlar, bütün ev heyvanları**
**Qoy mədh etsin, Onu tərifləsin. hmm**

4. Bəşər övladları, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin.
Rəbbin kahinləri, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin.
Rəbbin qulları, Rəbbi izzətləndirin, *
mədh edin, Onu tərifləyin. •

**D:Salehlə<u>rin</u> ruhları və canları,**
**Saleh və qəlbən təvazökar olanlar,**
**Şadrak, Meşak, Aved-Neqo ***
**Mədh edin, Onu tərifləyin. hmm**

(: Kyrie eleison, Xriste eleison. :)

## *91. Rəbb ilə bu gün görüşdüm*

Rəbb ilə bu gün görüşdüm
və təzə sevinc qəlbimə qoydu.
**Oo-Alleluya!**
O böyük sevincdən
Ona həmd edim və alqışlayım.
**Ona bir yerdə həmd edək,**
**Bizi Sevəni biz də sevək!**



## *92. Rəbb Qüdrətlidir*

1. Rəbb qüdrətlidir, əbədi həyat verir
Qəlbimi rahat edir,
Ömrümü hər bir şərdən qurtarır.

**Rəbb qüdrətlidir,**
**Rəbb vəfalıdır,**
**Onun bütün işləri safdır.**

2. Rəbb yaxındadır, Onunla görüşəcəm
Padşahlığı görəcəm
Müqəddəs Ruhla məni məsh edib.

**Rəbb yaxındadır,**
**Rəbb buradadır,**
**Onun bütün işləri safdır.**

## *93. Rəbbimiz Allahımız*

1. Rəbbimiz Allahımız, qüdrətə layiqsən
   Hər şeyə qadir Allah, hörmətə layiqsən
**(: Var Olub, Var Olan, Var Olacaqsan. :)**

2. Hamını Sən yaratdın Öz iradənlə
   Yoxdan var peyda etdin Müqəddəs Sözünlə
**(: Var Olub, Var Olan, Var Olacaqsan. :)**

3. Taxtda oturan Quzunun önündə yığışıb
   Alqışlar söyləyib və səcdə qılarıq
**(: Şan-şöhrət, hörmət, qüdrət,**
**Mədhlərə layiqsən. :)**

## *94. Rəbbin Adına Alqış Deyək*

*Blessed be the name of the Lord, & Worthy, You are worthy*

Rəbbin adına alqış deyək;
O bütün şan-şöhrətə layiqdir
Əllərimizi göyə uzadaq;
Göydə Olana, Onun adına,
Rəbbin adına alqış deyək.

**(: Layiqsən, Sən layiqsən**
**Padşahların-Padşahı**
**Sən layiqsən. :)**

## *95. Ruhum ol, Canım ol*

Mən Səni çox sevirəm, yolunu gözləyirəm,
Həyatıma daxil ol, göstər mənə doğru yol.
Sən ol mənim sağ qolum, işıqlansın qoy yolum.
Yenileşsin mənim qəlbim, Sən ol yeganə, Rəbbim.

**Ruhum ol, canım ol, bədənimdə qanım ol,**
**Amin İlahi, amin İlahi, amin.**

Mən Sənə minnətdaram, Sənə sadiq qalaram.
Ürəyimin odusan, həyatımın sonusan.
Ol fikrim həyatım, həmişə Səninlə qalım.
Ol mənim Xilaskarım, həyatım ol, yolum ol.

## *96. Sağlamların Deyil*

*$$D, Lk 5:31 / Mk 2:17 / Mt 9:12, Mt 11:28*

**Sağlamların deyil,**
**Xəstələrin həkimə ehtiyacı var.**
**Mən salehləri deyil, günahkarları**
**tövbəyə çağırmaq üçün gəlmişəm.**

Gəl, mənim yanıma gəl,
Mən sənə rahatlıq verərəm.



## *97. Sən Dünyaya Gəldin ki*

1. Sən dünyaya gəldin ki, çəkilərək çarmıxa
İnsanlara insanlıq elmini öyrədəsən
Sən dünyaya gəldin ki, günahsız ola-ola
Hamının günahını Öz qanınla yuyasan

**Sənsiz olan dünyada, dünyanın**
**dadı yoxdur. İsasız bir dünyada, dünyanın**
**adı yoxdur. (:Sənsiz olan, sənsiz olan**
**dünyanın adı yoxdur. Sənsiz olan, sənsiz**
**olan ruhun qanadı yoxdur.:)**

2. Sən dünyaya gəldin ki, sevərək düşmənini
İnsanlara insanlıq nümunəsi olasan
Sən dünyaya gəldin ki, insanlığın yolunda
Özünü qurban verib məşəl kimi yanasan.

## *98. Səni Ucaldıram, Rəbb*

*Lord I Lift Your Name on High*

Səni ucaldıram, Rəbb, Sənə nəğmə oxuyuram,
Şadam ki, Rəbbim Sənsən,
Xilas etməyə gəldin Sən.

**---Göylər<u>dən</u> yerə gə<u>lib</u> yol göstərdin,**
**Günahları götürüb çarmıxa getdin.**
**Çarmıxdan zülmətə və ordan göylərə**
**Minnətdaram mən Sənə.**

## 99. Sən Ucasan

1. (: Şükür Sənə, Allah, göylərdəsən
Əllərimi uzadıram Sənin tərəfinə mən.:)

**N: Sən ucasan, Sən gözəl və ucasan,**
**(: Sənə bənzəyən yoxdur:)**

2. (: Gəlirəm Sənə mən, şükürlərlə
Möcüzələrin böyükdür və sevgin Sənin güclü.:)

## 100.Sənin Önündə Diz Çökürəm

*I Praise Your Name, Almighty God*

Sənin önündə diz çökürəm, Var olan Allah
Rahatlığı, təsəllini, tək Səndə tapıram mən
Sən böyüksən, Sənin bənzərin yoxdur
Sənin önündə diz çökürəm Sən Rəbbim mənim.

## 101.Sənin Sevginə Ehtiyacım Var

(: Sənin sevginə ehtiyacım var
Sənin gücünə ehtiyacım var.:)



**(: Ruhunu tök üzərimizə.:)**

(: Atəşin yansın qəlbimizdə,
Səni gözləyirik.:)

## *102.Səninlə*

By Your Side

Səninlə qalardım, qoynunda olardım
İsa Ruhunun eşqi, hər şey aydındır Sənə.
Tanrı Səni çox sevirəm, daha nə deyim?
Gündən günə Sənə olan, eşqim artır mənim.

## *103.Sinə Gəldin Əzablara*

(:Sinə gəldin əzablara, nicat verdin insanlara.:)
(:Eşqimi bağladım sənə, ümidimi verdim Sənə.:)

**N: (: Göydə olan Padşahlığın,**
**Yer üzərində də olsun.:)**

(:Gəl xilas et həyatımı, ürəyimi şərdən qoru.:)
(:Pak sözünü insanlara, yada sal, nurunu göstər.:)

## *104.Susadınsa Əlacın İsa*

Susadınsa əlacın İsa,
Tanrının Oğlu bulağın yolu
Kim Ona inanar, ürəkdən bağlanar
Əbədi həyata malik olar.
**(: Alleluya, şükür və izzət :) 3x**
**İsaya şükür, Alleluya!**

## 105. Sən Tanrımsan

*Ty si ten Pán, pravý Lekár, $$D*

Sən Tanrımsan, şəfa verənsən,
Ümidimin Rəbbisən,
Sözün məni dəyişər, canımı sağaldacaq.

## 106. Sənin Məhəbbətin

*Tvoja Láska je silnejšia než vietor*

Sənin Məhəbbətin küləkdən güclüdür,
Hündürdür bütün dağlardan, Dərindir dənizin dibindən, gözəlləşdirir məni. *(Dəyişdi həyatımı)*

## 107. Şadam, Şadam

1. O gündən ki (:Allahım:), (:məni çağırdı:).
   O gündən ki (:Çobanım:), (:məni tapdı:).

**N: (:Şadam:)3x - bağışlandım, azadam.:)**

2. O vaxt ki (:mehri İsa:), (:qəlbimə doldu:)
   Boyun əydim yoluna, qapısına
   Yeni doğum, yeni yaşayış.



3. O gün ki əhd elədim, əhd bağladım
   İsa qanıyla, öz vücudu ilə
   Dedi əgər təvəkkülünə gəlsən
   Rahatlıq verirəm sənin həyatına.

4. Nə şadlıq günüdür, sevinc günüdür
(:Xilas şadlıqdır:),
Günahlarımı aparıb çarmıxda
**Qəmdən azadam, Qəmdən azadam.**

## *108.Tamam Oldu O*

Tamam oldu O, qələbə çaldı O,
Yendi O. İblisin ölüm qüvvəsi sındı,
İsa Padşahdır, Alleluya,
Əbədi şahən Şahımızdır!
**(: İsa Padşahdır! :) 6x**
**Bütün bu yer üzündə!**

## *109.Tanrım, Məqsədim Ol*

*Jesus be the Centre*

Tanrım məqsədim ol,
Ruhum ol, canım ol, Tanrım.
Tanrım, ümidim ol,
Dilimdə nəğməm ol, Tanrım.

**Qəlbimin alovu ol, qayığımın küləyi ol!**
**Həyatımın mənası ol, İsa, İsa.**

Tanrım məqsədim ol,
Yolum ol, rəhbərim ol, Tanrım.

# 110.Tək Səni Sevdim

Məcdalı Məryəm

(: Tək Səni sevdim, tək Səni buldum,
Sənə tapındım, Rəbb.
Gözüm Səni axtarır, qəlbim Səni istəyir,
Dilim Səni səsləyir, Rəbb. :)

**N: (:Müqəddəs:), Müqəddəsdir Rəbb. 2x**
**Mənə candan əziz, hamıdan doğma**
**(:Müqəddəs:), Müqəddəsdir Rəbb.**

(: Şərəf, şan Onundur, izzət Onundur
Ehtişam Onundur, qüdrət Onundur. :)

# 111.Ucadır Şahımız!

He Is Exalted

Ucadır Şahımız, ucadır göy üzündə
Həmdlər olsun! Ucadır Şahımız, ucadır
və mən sevirəm Rəbbimi!
**İsa Rəbdir!**
**Kainatın sahibidir!**
**Səma və yer**
**Onun ismi ilə sevinir!**
**Ucadır Şahımız,**
**Ucadır göy üzündə!**



## 112.Tövbə

Aysel Quluzadə

1. Sən mənə sevinc verdin,
   Sən mənə ümid verdin,
Ooo, İsa Sən mənim Şahım, mənə ümid verdin.

**N:Qarşında günahkaram, bağışla məni,**
**Həmişə mənimlə olsan da, unutdum Səni**
**Sənə şükür etmədim, Səni yad etmədim,**
**ooo, Rəbbim.**

2. İndi tənhayam hər şeyi anlamışam.
   Bilirəm ki, mənimləsən, məni eşidirsən
   İzin vermə bir daha səni unutmağa
   Qoyma Tanrım məni anla.

## 113.Ucaldıram Səni

I Exalt Thee

(: Hamıdan ucasan bütün yer üzündə Sən
   Nə qədər gözəldir adın, bütün adlardan.:)

(:Ucaldıram Səni:) 3x İlahi!
**(:Yüksəldirəm Səni:) 3x İlahi!**

## *114.Ura - Ad Günləri*

1. Kim yanvarda doğulub, o zaman boran olub.
   Dur səni təbrik edək, sənə mahnı oxuyaq.

**N:İsa səni çox sevir, bunu Bibliya deyir,**
**Hər an səni saxlayıb qoruyur, əzizləyir.**
**Gəl edək davam, otura bilərsən sən.**

2. Kim fevralda doğulub, şaxtadan şüşə donub.
   Qalx, bir az sənə baxaq, baxıb səndən zövq alaq.

3. Mart ayında kim olub, günəş hər yerə saçıb.
   Qalx bir az sənə baxaq, hamımız heyran olaq.

4. Apreldə isə kim olub, bu ay yağışlar yağıb.
   Qalx hamı səni görsün, sənə tamaşa etsin.

5. May ayında kim olub, gülə kəpənək qonub.
   Dur bir az ayaq üstə, qəhrəmanlığın göstər.

6. İyuna növbə çatıb, yasəmən də gül açıb.
   Dur bir az ayaq üstə, bir dənə sənsən bizdə.

7. Kim iyulda doğulub, yaman istilər olub.
   Ayaq üstə bir az dur, səninlə olmaq çox xoşdur

8. Avqustda isə kim olub, dəniz sezonu sonu olub.
   Dur səni də biz görək, səninlə birgə sevinək.

9. Kim sentyabrda olub, o vaxt yarpaq tökülüb.
Qalx, bir az sənə baxaq, baxıb səndən zövq alaq.

**10.** Kim oktyabrda olub sel kimi yağış yağıb.
Qalx bir az sənə baxaq, səninlə birgə şadlanaq

**11.** Kim noyabrda olub, qış artıq yaxınlaşıb.
Artıq sən də durmusan, bizim əzizimizsən.

**12.**Kim dekabrda olub, nəhayət ki, qar yağıb.
Qar bir az sənə baxaq, xoşbəxtdir səninlə olaq

**13.**Kimsə birdən unudub nə vaxt anadan olub,
Fikir etmə, qəm çəkmə, oxuyarıq biz sənə.

**..mahnı qurtardı, otura bilər hamı**

## *115.Ura - Mayak*

1. Həyatımızda məqsədimiz vardır,
Mayaktək yolu göstərə bilərik.
Qaranlıqdan yazılışa gərəkdir
B: Bu, xilas nurudur,
Şərəfləndirir hamıya o, xidmət edir

**N: Mayaktək sən parılda,**
**Gərəksən bu dünyaya**

2. Əgər dənizlərdə tufan olarsa
Ətrafı bürüyər böyük dalğalar
Bil ki, mayaka sən baxa bilərsən
B: O, xilas nurudur, şəfəqlənir, gəl,
Bu dağda şükür edərək.

# *116.Ura - Rəbbin Sözü*

1. Rəbbin sözüdür həqiqi Kəlam,
Rəbbin sözünə güvənirəm mən
Tək Rəbbin sözü açıqdır hər zaman,
Rəbbin sözüdür yolu göstərən

**N: Rəbbin sözüdür yeganə Söz,**
**Rəbbin sözüdür doğru Söz.**

2. Tək Rəbbin sözü bizə güc verər
Rəbbin sözüdür - su və çörək
Bu söz düşməni hər an məğlub edər
Bu sözlə qələbə hər an çalınar.

3. Rəbbin sözüdür alov kimi yanan,
Onun sözünü söndürmək olmaz.
Sərin havatək gəzirsən havada
Rəbbin sözündə yeni həyat var.

4. Rəbbin sözü ilə boy atmaq olar,
Rəbbin sözündə böyük bir güc va
Tək Rəbbin sözü gün kimi saçar
Hər bir insanda Rəbbin sözü var.



## *117.Ura - Səmalarda*

Səmalarda Allahım gözləyir məni,
Müqəddəs əllərində şərdən saxlayır.
Səni - Məni, hər zaman, dəqiq bunu bilirəm,
O mənimlə olanda qəlbim rahatdır.

## *118.Ura - İsa Rəbbimiz*

**N: İsa, Rəbbimiz, ən şanlı və ən gözəlsən**
**İsa, Rəbbimiz, həyatımda ən vacibsən**

1. Öz dostumu tapdım mən İsa Rəbbimdə,
Qəlbim doludur əbədi məhəbbətlə
Günahlarım bağışlanır və çarmıxa aparılır
Səmavi hikmətin, gözəl həqiqətin
Möcüzələrimə sevinc gətirib.

2. Qarşımda sənin saf yolunu görürəm
Hərdən getsəm də gecənin zülmətində
Mən qorxudan çəkinmərəm,
Çünki yaxınsan hər zaman
Sənə məxsus oldum, həyatımı verdim,
Müqəddəs ismini mən ucaldıram.

## *119.Ura - Ura*

1. Görürəm xəritəni mən qədim zamandan yazılmış, kömək edəcək bu xəzinə xilas yolunu tapam. Bu sərvəti verə bilər yalnız Müqəddəs Yazılar, əgər mənim əlimdədir o çaşıb qalmayacağam.

**N:Ura, göylərin yolundayam**
**Ura, Rəbbimə inanıram, Ura, danışaram**
**Hamıya sərvətin varlığımdan.**

2. Əgər qüvvətin tükənib və çətindir bu səfərin
Yadında saxla ki, dar yolda Rəbb kömək edər sənə
Allahın sirri açılıb dayağıdır gücsüzlərin
Müqəddəs Ruhun gücü ilə dua et, oxu bizlə.

## *120.Ura - Rənglər*

1. Qırmızı rəng məhəbbət, qara rəng günah, zülmət. Azadlığın ağ rəngi-yumuş qəlbin rəmzi.

2. Səmalar qızıl rəngdir, qanadlarımı verdi,
Uçmağa hazıram mən - Rəbbimi gözləyirem.

**N: Lay, lay, lay,.... Lay, lay, lay....**
**Çox sevir bizi Tanrı, Öz xilasını verdi,**
**Günahlar bağışlandı, Onun övladlarıyıq.**

## *121.Ura - O, Rəbdir*

1. Zülmətdə olan bir xalq görəcək
Rəbbin nurunu. Böyük sevinc hamıya enəcək
Betlehemdə doğulubdur körpə, möhtəşəm Padşah
**O, Rəbdir, O, Padşahdır, insana nur,**
**Ümid veribdi. Tanrım və Xilaskarım,**
**Əzəmətli mənim Allahım.**
2. Azadlığa aparan yolu biz elan edirik, aydın
işığında gedirik. Həyat sözlər ilə dərdlirərə
təsəli veririk, Tanrının padşahlığı yaxındır.

## *122.Ura - Rəbbin Nuru*

**N:Rəbbin nuru qələbə çalır, Rəbbin nuru**
**Qəlbimdə yanır. Sevincimi, o səbəbimi,**
**Allahın Məhəbbətini**

1. Hər tərəfdən bizi bürüyən Odur, nəğməmizi
Aləmə çatdıran böyüklərə və körpələrə,
Rəbbin nuru, işıq verən
2. Bu dünyada Allahın çırağısan, ən şərəflidir
Bizim əməyimiz, hamıya sevinci bəxş edək,
Rəbbin nuru ilə görüşək
3. Yol göylərə işıqlı və açıqdır, çırağımız
Cəsarətlə yanır. Səmalarda sevinc
Böyükdür,nurumuz Rəbdə parlayır

# *123.Vaiz — Hər Şey Puçdur*

*Песня про зайцев*

1. Bir nəsil gedir, o biri gəlir, amma dünya
Daim qalır. Günəş çıxır, günəş batır, sonra
Dönür ki, təzədən çıxsın.

**N[1]: Hər şey puçdur, tamam puçdur,**
**Yalnız Allahın əmrləri yox,**
**Çünki hər işi, gizli olan hər şeyi**
**O, düzgün mühakimə edəcək.**

2. Hikmətli adamın gözləri yerindədir,
Ağılsız isə qaranlıqda gəzir
Lakin bilirəm ki, ikisinin də
Aqibəti eyni cür olur.

3.Hər şeyin öz vaxtı var, doğulmağın, ölməyin də
Sevməyin, susmağın, danışmağın da
Ağlamağın öz vaxtı, gülməyin öz vaxtı,
Yas tutmağın, rəqs etməyin, sülhün öz vaxtı.

4. Fəhlə az da yesə, çox da yesə,
Onun yuxusu şirindir,
Amma varlı adamın dövləti qoymaz ki,
O, rahat, çox rahat yatsın.

**N[2]: Nə olubsa, yenə olacaq,**
**Nə edilibsə, yenə ediləcək,**
**Səma altında tamam təzə bir şey yoxdur,**
**Çoxdan var imiş.**

**N[3]: Sözlər kifayət etmir,**
**Göz görməkdən doymur,**
**Qulaq da eşitməkdən,**
**Var-dövlət sevən qazancdan doymaz**
**Pul sevən puldan doymaz...**

## *124.Ürəyimi*

*$$D, Mt 26,38*



Ürəyimi elə dərin kədər bürüyüb,
az qalır ki, ölüm...
Burada qalın və
Mənimlə birlikdə (:oyaq olun.:)[3]

## *125.Ürəyimi Dəyiş*

*$$D, Change my heart, o, God*

**N: (: Ürəyimi dəyiş, Səninlə olum,**
**Ürəyimi dəyiş, vəfalı olum. :)**

Dulusçu Sənsən, əlində palçıq — mən.
Düzəlt bir qabı, bu zəif gildən.

# 126.Yalnız Sən

Only You

Yalnız sən, ya Rəbb, ürəyimin arzusun
Verərsən. Sənə yaxın olmağın,
Yerini heç nə verə bilməz, Rəbb.

Yalnız Sən duamı eşidərsən, yalnız Sən yeni həyat verən. Qəlbimi – fərəhləndirərsən, ürəyimin səsini duyarsan.

Səni sevirəm mən, ürəyimin istəyini Sən ver
Doldur məhəbbətinlə, ürəyimin dərinliklərini.

# 127.Yaralarında Gizlət Mən




$$D

**N: Yaralarında gizlət məni,**
**Əzablarımda axtarıram Səni.**

1. Mənim üçün yanıma gəldin Sən.
   Tanrımsan, Rəbbimsən,
   Sənə iman edirəm mən.

2. Şəfa verənsən, hər şeyi bilənsən.
   Həyat verənsən, Sənə ümid edirəm mən.

3. Çarmıxda əzab çəkdin, üçüncü gün dirildin.
   Dostumsan, Məsihsən,
   İsa Səni sevirəm mən.

# *128.Yeməklər — Ürəklər*

*$$D, Mk 7:18, Mt 15:11*

1. Başa düşmürsünüz ki, kənardan
   insanın daxilinə girən şey
   <u>insanı murdar edə bilməz</u>?
   Çünki daxil olan şeylər onun ürəyinə deyil,
   <u>Qarnına gedir və ifraz olunur</u>.

**N[1]:Kənardan - daxilinə, yeməklər - qarnına**
**İnsanı murdar edə bilməz!**

2. İnsan murdar edən <u>insandan çıxandır,</u>
   Çünki insanların daxilindən, ürəyindən

Pis fikirlər, cinsi əxlaqsızlıq, oğurluq,
Qatillik, zinakarlıq, tamahkarlıq, şər əməllər,
Hiylə, pozğunluq, paxıllıq,
Küfür, lovğalıq və ağılsızlıq
çıxar. Bütün bu pis işlər
insan daxilindən çıxıb
<u>onu murdar edir</u>.




**N[2]:**
**Ürəkdən - daxilindən,**
**Fikirlər - əməllər**
**İnsanı murdar edə bilər.**

## *129.Yorğun Ürək*

*music: Mahsun Kirmizigul – Aglama sen*

1. Ey yükü ağır olanlar, bütün yorğunlar
Gəlin Rəbbin hüzuruna sizi qaldırar.
Təvazökar ürəyi ilə O yaxınlaşar
Göz yaşlarınızı silib sizi qucaqlar.
**(: Sınmış, qırılmış ürəklə, qayğıyla, yüklə**
**Göz yaşı içərisində gəlmişəm Sənə! :)**

2. Göz yaşıyla gəlmişəm ki, onu siləsən
Yüklərimi götürərək rahatlıq verəsən.
Yaralarımı sarıyıb məlhəm olasan
Boyunduruğun, yükünü üzərimə qoyasan.
**(: Ver mənə Öz ürəyini, həlim qəlbini**
**Möhtacam məhəbbətinə göstər sevgini.:)**

3. Baxdıqca Rəbb, əllərinə yaram sağalır
Toxunanda əllərinə qəlbim şadlanır.
Doymuram məhəbbətindən doydur ruhumu
Ürəyindən ürəyimə saç nurunu! **Ver mənə...**

## *130.Yüksək Yüksək*

**(:Dərdlərini İsaya sən versən, səndən alar.:)**
(:Yüksək yüksək, daha daha yüksək
Daha yüksək, qaldıraq İsanı! :)

(: Dərin dərin, daha daha dərin
Daha dərin, basdıraq şeytanı! :)

## 131.Himayənə Gəlirik

Himayənə gəlirik, ey Müqəddəs Allah Anası, Dərd içində olduqda dualarımıza laqeydliklə yanaşma, lakin həmişə bütün təhlükələrdən bizi azad et, İzzətli və Bəxtiyar Bakirə Qız.

## 132.Müqəddəs Məryəm

Müqəddəs Məryəm, Rəbbin sözlərini
Ürəyində saxlayıb həyatınla yerinə yetirdin.

**Bizə kömək et, Tanrının iradəsinə vəfalı olaq, yolları ilə gedək. Amin.**

## 133.Salam, Mübarək Məryəm

*$$D, Cəlil*

Salam, mübarək Məryəm!
Rəbb səninlədir.
Sən qadınlar arasında
Bəxtiyarsan
və sənin bətninin Səmərəsi
İsa bəxtiyardır.
Müqəddəs Məryəm,
Allah Anası,
İndi və ölüm saatımızda
Biz günahkarlar üçün
- dua et. A-a-a-amin.



# 134. Sevin, ey bəysiz Gəlin

Tural Başirli, Agni Partenes, $$D

1. Məryəm Rəbbinin seçilmişi,
   Qulların ən itaətlisi,
   *Sevin, ey bəysiz Gəlin, sevin!*
   Gəlin-gəlinlərin iffətlisi,
   Salehliyin nümunəsi. *Sevin...*

2. Köməksizlərin köməkçisi,
   Ümidsizlərin ümid yeri
   *Sevin, ey bəysiz Gəlin, sevin!*
   Sülhün, sevginin Şahzadəsi,
   Göylərdəki sevinc səsi. *Sevin...*



3. Bakirə üzlərin isməti,
   Mələklərin yüksəkliyi.
   *Sevin, ey bəysiz Gəlin, sevin!*
   Təsəlli edir qəmliləri,
   Sağaldır dərdli qəlbləri. *Sevin...*

4. Bətnində gətirdin Yeni Əhdi,
   Oldun xilasın vasitəsi,
   *Sevin, ey bəysiz Gəlin, sevin!*
   Məryəm, unutma bizləri,
   Rəbbə çevir ürəkləri. *Sevin...*

# 135.Cəbrayılın Xəbəri

*Edgar Pettman, Sabine Baring-Gould – Gabriel's message*

1. Göydən Cəbrayıl mələk gəldi,
Qanadları qar, gözləri alov kimi
"Salam" dedi, "Ey, lütflə dolu olan qız"
**Ən çox bəxtiyar qadın, Gloria!**

2. "Çünki sən mübarək Ana olacaqsan
Səni bəxtiyar adlandıracaqlar
Oğlun İmmanuel olacaq
**Ən çox bəxtiyar qadın, Gloria!**

3. Həlim Məryəm başını aşağı saldı
Mənim üçün Allahın istədiyi kimi olsun.
Qəlbim Rəbbi ucaldır,Onun adı müqəddəsdir
**Ən çox bəxtiyar qadın, Gloria!**



## *136.Litaniae Lauretanae*

1. Müqəddəs Məryəm, Müqəddəs Allah Anası,
        bizim üçün dua et!
    Məsihin Anası, Kilsənin Anası,
        bizim üçün dua et!

**N:** **Məryəm, apar Rəbbə bizləri!**
**Məryəm, gətir Tanrıya adamları!**



2. Ədalət aynası,
    Hikmətin mərkəzi,
        bizim üçün dua et!
    Müqəddəs Əhd sandığı,
    Səmanın qapısı,
        bizim üçün dua et!

3. Günahkarların sığınacağı,
    Məsihçilərin Köməkçisi,
        bizim üçün dua et!
    Mələklərin Mələkəsi,
    Şəhidlərin Mələkəsi,
        bizim üçün dua et!

## *137.Salam, Müqəddəs Mələkə*

Salam, müqəddəs Mələkə, Mərhəmət Anası,
Salam, həyatımız, sevincimiz və ümidimiz.
Səni çağırırıq,
sürgündə Həvvanın övladları olan biz.
Bu göz yaşları vadisində ağlayaraq
Sənə ah-naləmizi göndəririk.
Ey Havadarımız,
mərhəmət gözlərini bizə döndər,
Və bu sürgündən sonra
bətninin bəxtiyar səmərəsi - İsanı bizə göstər.
Ey mərhəmətli, ey lütfkar, ey sevimli
Bakirə Məryəm! Amin.

## *138.Məryəm, Mənim Anam*

Məryəm, mənim Anam, Məryəm, müti olan,
Məryəm, dua edən, Məryəm, Rəbbi sevən.

Qarşımızda duran yolu - düz və dürüst et,
Qoy İsanı görə bilək, Onunla da dirilə bilək.



Məryəm, mənim Anam,
Məryəm, Rəbbin quluyam,
Aaaaa, Amin, Aaaaaa, Amin.
Aaaaa, Amin, Aaaaaa, Amin.

## 139.Kədərli Ana

Kədərli Ana çarmıxın yanına gedir.
Kim bunu dərk edər?
Kim səninlə ağlayar, Ana?
Apar məni Rəbbin Müqəddəs Ürəyinə!
Öyrət məni Rəbbin Müqəddəs iradəsinə
tabe olmağı.
Əzablı Ana, kömək et övladlarına.



## 140.Səmavi Mələkə

SK: Vždy je s nami M: $$D

Sevin, ey səmavi Mələkə, ***(Alleluya!)***
çünki bətnində daşıdığın ***(Alleluya!)***
vəd etdiyi kimi, dirildi. ***(Alleluya!)***
Allaha bizim üçün dua et. ***(Alleluya!)***
Bakirə Məryəm, sevin və şadlan, ***(Alleluya!)***
Çünki Rəbb doğrudan da dirildi. ***(Alleluya!)***
Ey Allah, Oğlunun, Rəbbimiz
İsa Məsihin dirilməsi ilə
Dünyaya sevinc verdin, Sən dünyaya sevinc verdin.
Ey, Allah, Səndən diləyirik:
Məryəmin havadarlığı ilə
əbədi həyatın sevincinə çatmaqda bizə
kömək et. (: Rəbbimiz Məsih vasitəsilə. :) 2x

# 141.Stabat Mater

**1.** Kədərli Ana dayanmışdı
Göz yaşlarıyla çarmıxın önündə
Oğlu ordan asılmışdı...

**2.** Ruhu bürünmüş kədərə
Hiss edir və əziyyət çəkirdi
Sanki qılınc girmişdi qəlbinə...

**3.** O xeyir-dualı olan
Ah necə də dərdliydi
O, Vahid Oğlun Anası...

**4.** Necə yandı və qovruldu
Təqvalı ana görəndə ki
İzzətli Oğlu nələr çəkdi...

**5.** Hansı insan ağlamaz ki?
Məsihin Anasının
Əzablarını görəndə...



**6.** Axı kim üzülməz ki?
Məsihi seyr edir Ana
Əzab çəkir Onunla birgə...

**7.** Nəslinin günahlarına görə
İsanı əzab içində gördü
Günahların əvəzini ödəyir...

**8.** Gördü ki Əziz Oğlu
Ölümə tərk edilmişlərin
Ruhlarını satın alır…

**9.** Ey Ana, sevgi mənbəyi
Qoy əzablarını hiss edim
Və Sənlə birgə yas tutum…

**10.** Yandır ürəyimi, alovlandır
Məsih Allahın eşqiylə
Ona bənzəməyin eşqiylə…

**11.** Ey, Müqəddəs Ana, yalvarıram
Çarmıxdakı əzabları
Ürəyimdə möhkəmləndir…



**12.** Sənin yaralı Oğlunun
O ki mənimçün əzab çəkdi
Əzablarını mənlə bölüş…

**13.** Qoy ağlayım mən də Sənlə
Çarmıxdakına yas tutum
Nə qədər ki canım sağdı…

**14.** Çarmıxda yanında durmaq
Həm əzablarda iştirak
Həm də ağlamaq istərəm…

**15.** Sən ey Bakirələr Bakirəsi
Mənə qarşı sərt davranma,
Qoy Səninlə mən ağlayım...

**16.** Məsihin ölümünü paylaşaq
Əzablarına şərik olaq,
Yaralarını birgə saraq...

**17.** Qoy zərbələr mənə dəysin
Çarmıxdan axan qanları
Qoy mən içim...

**18.** Qoy Cəhənnəmdə yanmayım
Qorxunc məhkəmə günündə
Ey Bakirə, qoru məni...

**19.** Ya Rəbb,
dünyadan köçəndə
İcazə ver
Ananın duaları ilə
Gəlim Sənin hüzuruna...



**20.** Bir gün
bədənim öləndə
Bəxş edərsən ruhuma
İzzətli cənnətini.
Amin...

## *142.O Müqəddəs*



*musiqi: Libera - Sanctissima*

1. O müqəddəs, o mehriban,
   Ey, Bakirə Məryəm!
   Əziz Ana, bəxtiyar Ana, dua et bizim üçün!

**N: Məryəm, Məryəm, dua et bizim üçün!**

2. Himayənin, həlimliyin, nümunə bizə olsun!
   Sevincimiz, ümidimiz, dua et bizim üçün!

Təşəkkür, Səmavi Mələkə, seçilmiş Allah Anası.
Təşəkkür, Səmavi Mələkə, təşəkkür Ana.

## *143.Ave Məryəm!*

1. Dağlardan və vadilərdən səs gəlir,
   Canfəşanlıqla O, duaya çağırır.

**N: Ave, Ave, Ave Məryəm! 2x**

2. Mübarək Bakirə, Müqəddəs Ulduz,
   Bizim üçün əbədi bir zərif Ana ol!

3. Sevimli Oğluna inadla dua et,
   Yollarımız bizi Ona tərəf aparsın!

4. Səninlə birlikdə insanların sədası,
   Müqəddəs Səmadakı Allaha həmd etsin!

## *144. Ey Ləkəsiz Bakirə*

Ey Ləkəsiz Bakirə,
qüsursuz Allah anasısan
Ey lütflə bürünmüş xanım,
göylərin üstün xanımısan
Günəşdən də daha parlaq,
göylərdən də ucasan
Mələklərdən üstün olan
bakirə qızın ismətisən
Səmadan daha parlaq,
işıqdan daha aydınsan
Bütün səmavi ordulardan
daha çox müqəddəssən,
Ey əbədi bakirə Məryəm,
yaradılmışların üstünüsən,
Ey saf və qüsursuz gəlin,
qadınların müqəddəsisən,
Ey gəlin, şahzadə Məryəm,
sevincimizin səbəbisən,
Ey mərhəmətli qayğıkeş,
qızların ən nəcibisən
Keruvlardan daha şərəfli,
Serafimdən də üstünsən
Ey Kəlamın nurlu otağı,
solmayan ətirli gülsən,
Sevin, ey bəysiz gəlin, sevin,
Sevin, ey gəlin, sevin.

## *145.Rəbbin Mələyi*

1. Rəbbin mələyi Məryəmə xəbər verdi *
   və O, Müqəddəs Ruhdan dölləndi

**N: Salam, mübarək Məryəm!**
**Rəbb Səninlədir. Sən qadınlar arasında bəxtiyarsan və Sənin bətninin Səmərəsi İsa bəxtiyardır. Müqəddəs Məryəm, Allah Anası, indi və ölüm saatımızda**
**biz günahkarlar üçün dua et. Amin**

2. Budur, mən Rəbbin quluyam *
   mənə söylədiyin kimi olsun. **N:**

3. Kəlam cism oldu * və bizimlə yaşadı.

4. Ey müqəddəs Allah Anası,
   bizim üçün dua et ki, *
   Məsihin vədlərinin yerinə yetirilməsinə
   layiq görülək.

**Dua edək:** Ya Allah, qəlblərimizi Öz lütfünlə doldur ki, mələyin xəbəri vasitəsilə biz Oğlunun cism olmasını bilək
çarmıxda Onun əzabları və ölümü ilə dirilmənin izzətinə çataq. Bunu Səndən, Rəbbimiz İsa Məsihin adına diləyirik. Amin

## *146.Korlar Görür*

*Lk 7:22, Mt 11:5*

Gedin, görüb eşitdiklərinizi dünyaya bildirin!

**Korlar görür, axsaqlar yeriyir,**
**Cüzamlılar hamısı pak olur,**
**Karlar eşidir, ölülər dirilir**
**Və yoxsullara Müjdə yayılır.**

## *147.Rəbb İsa Məsih*

1. Rəbb İsa Məsih,
Sən mənim Rəbbimsən,
Sən mənim Həyatımsan.
İman edirəm ki, məni sevə-sevə
Həyatıma gəlmək istəyirsən.

**N: (: Mənə şəfa vermək,**
**məni xilas etmək istəyirsən.:)**

2. Gəl ürəyimə, gəl həyatıma,
Gəl canıma, gəl sözlərimə.
K:Qoy mən də Səni sevim,
Dünəndən çox, sabahdan az.

## 148.Sülh Üçün Dua

Rəbbim, məni Öz sülhünün aləti et.
Nifrət olan yerdə qoy sevgi,
Ədalətsizlik olan yerdə – əfvi,



İnciklik olan yerdə – bağışlama,
Yalan olan yerdə – həqiqəti,
Ümidsizlik olan yerdə – ümidi,
Qaranlıq olan yerdə – nuru,
Kədər olan yerdə – sevinci əkim.

Ey, İlahi Ağam, mənə kömək et ki,
təsəlli almaqdansa daha çox təsəlli verə bilim,
başa düşülməkdənsə, başa düşüm,
sevilməkdənsə, sevim.

Çünki biz verərkən əldə edirik,
Bağışlayarkən bağışlanırıq,
Ölərkən əbədi həyat üçün doğuluruq.

## 149.Allah Məğrurlara Qarşıdır

1 Peter 5:5

Allah məğrurlara qarşıdır,
itaətkarlara isə lütf göstərər.
Birincilər axırıncı olacaq.
Axırıncılar isə birinci

## 150.Məsih İsa Necə Düşündü

*Flp 2:5*

**N: Məsih İsa necə düşündü,**
**Siz də elə düşünün.**

Allah surətində olduğu halda
O Özünü Allaha bərabər tutmağı
bir haqq saymadı.

Lakin Özünü heç etdi və qul surətinə salıb
insanlara oxşar oldu.
İnsan şəklini alıb Özünü aşağı tutdu
və ölümə qədər - çarmıx üzərində
ölümə qədər itaət göstərdi.

## 151.Düşmənin Acdırsa

*Rom 12*

Düşmənin acdırsa, onu yedizdir,
Susuzdursa, ona su ver.
Belə etməklə sanki onun başına
(:köz tökərsən:)

**N: Pislik sənə üstün gəlməsin,**
**Pisliyə yaxşılıqla qalib gəl.**

# *152.Sizi Təqib Edənlərə*

*Rom 12*

Sizi təqib edenlərə xeyir-dua verin,
Lənət yox, xeyir-dua verin.
Əziyyətdə dözümlü olun.
Dayanmadan dua edin.

Sevinənlərlə sevinin, ağlayanlarla ağlayın.
Bir-birinizlə həmfikir olun.
Təkəbbürlü olmayın, məzlumlarla dostluq edin,
Özünüzü ağıllı saymayın.

# *153.Başlanğıcda Kəlam Var İdi*

*Yəh 1:1*

**N:Başlanğıcda Kəlam var idi.**
**Kəlam Allahla birlikdə idi.**
**Kəlam Allah idi.**
**O, başlanğıcda Allahla birlikdə idi.**

1. Hər şey Onun vasitəsilə yarandı
və yaranan şeylərdən heç biri Onsuz yaranmadı

2. Kəlam bəşər olub, lütf və həqiqətlə dolu olaraq
aramızda məskən saldı.

## *154.Məzmur 94 – Dərk Edin*

1. Dərk edin, ey xalqın nadanları!
   Ey axmaqlar, nə vaxt ağla gələcəksiniz?
   Qulaqları yaradan eşitməzmi?
   Gözlərə quruluş verən görməzmi?
Məgər millətlərə təlim verən,
İnsanlara bilik öyrədən tənbeh etməzmi?

**N: Rəbb insanın düşüncələrini görər,**
**Bunların boş olduğunu bilər.**

2. Əgər Rəbb köməyim olmasaydı
   Canım sükut diyarına vaxtsız köçərdi.
   «Ayağım büdrəyir» deyən zaman
   Məhəbbətinlə Sən dayaqsan
Mən daxilən çox narahat olarkən,
Təsəlli verərək məni fərəhləndirirsən.

**K: Ya Rəbb, bəxtiyar o insandır ki,**
**ona təlim vermisən,**
**Öz qanununu öyrətmisən!**
**Onu dar gündən çıxarıb**
**Dinclik verəcəksən.**

# 155.Məzmur 118[1] - Bu Günü

(: Bu günü :) (: Rəbb yaratdı :)
(: Onda sevinib :) (: şadlıq edək! :)



**Bu günü Rəbb yaratdı,**
**Onda sevinib şadlıq edək!**
Bu günü, bu günü Rəbb yaratdı.

# 156.Məzmur 118[2] / Yaxşıdır

**Rəbbə şükür edin, (:ona görə ki yaxşıdır:)**
**Rəbbə şükür edin, (:çünki məhəbbəti əbədidir:)**

1.Qoy İsraillilər belə desin: **«Çünki məhəbbəti əbədidir!»**
Harun nəsli belə desin: **«Çünki məhəbbəti əbədidir!»**
Qoy Rəbdən qorxanlar belə söyləsin:
**«Çünki məhəbbəti əbədidir!»**

2. Sıxıntı içində Rəbbi çağırdım,
Cavab verib məni genişliyə çıxartdı.

3. Rəbb mənimlədir, heç qorxmaram.
İnsan mənə nə edə bilər?
Rəbb mənimlədir, mənə yardım edər.

## 157.Məzmur 127 / Evi Rəbb tikməzsə



Evi Rəbb tikməzsə,
bənnaların zəhməti boşa gedər
Şəhəri Rəbb qorumazsa,
keşikçilər boş yerə orada gözlər.
Erkən qalxıb gec yatmağınız,
azuqə üçün özünüzü çox yormağınız
faydasızdır.

**N: Rəbb sevdiklərinə**
**Yuxuda olanda belə, verər.**
**Övladlar Rəbbin verdiyi paydır,**
**Bətnin bəhrəsi Onun mükafatıdır.**

## 158.Məzmur 131 / Təkəbbürlü deyiləm

*Saleziani (Pane moje srdce sa nevystatuje)*

1. Ya Rəbb, təkəbbürlü deyiləm,
Gözümü yuxarı yerlərə dikməmişəm.
Gücüm çatmayan böyük işlərə
Girişməmişəm.

**N:Ana qucağında olan körpə kimiyəm,**
**Sanki bir sakit körpəyə dönmüşəm.**

2. Ovunub səsimi kəsmişəm.
Ey, İsrail, Rəbbə ümidini bağla
İndidən sonsuzadək.

## *159.Məzmur 130 / Ümidsizlik dəryasından*

Ya Rəbb, ümidsizlik dəryasından
Səni səsləyirəm,
Ey Xudavənd, səsimi eşit, nalələrimə qulaq as.

**N: Ya Rəbb,**
**Təqsirlərimizi siyahıya alsan,**
**Bəs, ey Xudavənd,**
**Kim bunun qarşısında dayana bilər?**

Amma Sən bağışlayansan,
Ta ki ürəklərdə Sənin xofun olsun.

## *160. Məzmur 133 / Nə yaxşıdır, nə xoşdur*

**N: Nə yaxşıdır, nə xoşdur,**
**Qardaş olub bir yaşamaq.**

1. Qiymətli yağ kimidir
Başa çəkilib saqqala,
Harunun saqqalından
Paltarının yaxasına axırdı.

2. Sanki Xermon dağının şehi
Sion dağlarına düşür.
Rəbb bərəkət verir.

# 161.Məzmur 147 / Sınıq Qəlblərə

1. Sınıq qəlblərə Rəbb şəfa verər,
   Yaralarını sarıyar.

**N:** **Rəbbə həmd edin!**
**Allahımızı tərənnüm etmək**
**Nə qədər yaxşıdır.**

2. Məzlumları ayağa qaldırar,
   Pisləri isə toz-torpaq içinə atar. **N:**

**K:** **Layiqsən, ya Rəbb!**
**Əzəmətlisən, ya Rəbb!**



# 162.Məzmur 148 / Rəbbə Həmd Edin

*Aysel Brandl-Quluzadə*

Rəbbə həmd edin!
Göylərdən Rəbbə həmd edin,
Yüksəklərdən Ona həmd edin, həmd edin!
Ey Onun bütün mələkləri, Ona həmd edin!
Ey Onun bütün orduları, Ona həmd edin!

Ey Günəş, ey Ay, Ona həmd edin!
Ey parlayan bütün ulduzlar, Ona həmd edin!

## *163.Necə ki*

*Rom 5:18*

1. Necə ki bir təqsir üzündən
 bütün adamlar məhkum olundu,
 eləcə də bir saleh əmələ görə
 bütün adamlara yaşamaq üçün salehlik verildi.

**N[1]:Ya Rəbb, minnətdarıq, ya Rəbb, sevirik Səni**
**N[2]:Alleluya, Alleluya, Alleluya, Alleluya, Amin.**

2. Necə ki bir adamın itaətsizliyi üzündən
 çoxları günahkar sayıldı,
 eləcə də bir Adamın itaəti sayəsində
 bir çoxları saleh sayılacaq.

## *164.İsa Məsih - Allah*

İsa Mesih Hudaý (Turkmenistan)

(:İsa Məsih - Allah. Alleluya!:)
(:O məni sevir, O xilas edir. Alleluya!:)

## *165.Möhtəşəm, Mehriban*

Vznešený

Möhtəşəm, Mehriban,
Yalnız Sən Rəbbimsən,
Yaralanmış və sınmış canımızla gəlirik biz.

**N: Bizi gözləyirsən, ümid verirsən,**
**Günahı silirsən, mərhəmətlisən.**

# *166.Budur, Qan*

*Je to Krv*

Budur, Qan, təmiz, müqəddəs, bizə həyat verən
Budur, Qan, təmizləyən,
Qardan ağ bizi edən, lütf verən.



**N$^1$: Sənin Qanındır, Məsih İsa,**
**Özünü bizə qurban verdin.**

Bu Çörək bizim üçün Cənnət Çörəyi olur.
Bu Çörək gücləndirir, adamı azad edir, şəfa verir

**N$^2$: Sənin Bədənin, Məsih İsa,**
**Özünü bizə qurban verdin.**

# *167.Mənim Kiçik İşığım*

*Moje malé svetielko (beat)*

1. Mənim kiçik işığım, qoy, parlasın, hey-hey-hey
.........................................(parlasın)3x



2. Rəbb mənə onu verdi, qoy, parlasın...
3. Onu gizlətmək olmaz, qoy, parlasın...
4. Heç kim onu söndürməz, qoy, parlasın...

## *168.Allahın Məhəbbəti Gözəldir*

*Božia láska je tak krásna*

1. Allahın Məhəbbəti gözəldir,
   Halbuki çoxları ondan qaçır.
   Allahın Məhəbbəti gözəldir,
   Çünki ondan güclü bir şey yoxdur.

**Məsihin Məhəbbətində hamımız olsaydıq,**
**Dünya tamamilə başqa cür olardı,**
**Əzabların hamısı daha yüngül olardı.**

2. Allahın Məhəbbəti böyükdür,
   Vahid Oğlunu bizə verdi.
   Günahlardan bizi azad etsin,
   Əbədi həyat bizə verdi.

## *169.Rəbb Səni Çağırırsa*

*Keď ťa Kristus volá*

1. Rəbb səni çağırırsa, gəl, gözləmə,
   Əvvəlki həyatına geriyə dönmə.

**N:Düz yolla gedərsən Onun xeyir-duası ilə,**
**Həqiqəti görərsən** >>[1]**(bütün mələklər ilə)**[1]

2. Çalış vəfalı ol, ömür boyu, >>[2]**(mələklərlə)**[2]
   Bununla həyat olacaq dolu.
3. Çətin zamanda təslim olma,
   mükafatın böyükdür, narahat olma

# 170.Sən Yaxşısan

*Si večný Boh*

**N: Sən yaxşısan, Sən müqəddəssən,
Sənə mən minnətdaram.**

1. Bu günə görə, bacılara görə,
qardaşlara görə, minnətdaram.
2. Dostlara görə, qohumlara görə,
uşaqlara görə, minnətdaram.
3. Ulduzlara görə, dağlara görə,
çaylara görə, minnətdaram.
4. Asan şeylərə, çətin şeylərə də,
hər şeyə görə minnətdaram.
5. Məni yaratdın, məni sevdin,
məni bağışladın, minnətdaram.

# 171.Ardımca Gəlmək İstəyən

*Mt 16:24, Lk 14:27*

Ardımca gəlmək istəyən özündən imtina etsin,
və çarmıxını götürüb, ardımca gəlsin.
Canını xilas etmək istəyən onu itirəcək,
Mənə görə onu itirərsə, onu qoruyacaq.
**İnsan bütün dünyanı qazanıb canını itirərsə,
ona nə xeyri var?
Yaxud, insan öz canının əvəzinə
nə verə bilər?**

Rəbb, bizə rəhm et! Məsih, bizə rəhm et! Rəbb, bizə rəhm et!

# *172.Bizsə Çarmıxa Çəkilmiş*

*1 Kor 1:23 Yeşaya peyğəmbər 9:6 Flp 2:11*

Bizsə çarmıxa çəkilmiş Məsihi vəz edirik,
Bəziləri üçün büdrəmə daşı...
Başqaları üçün yanlış fikir...

Amma çağırılan üçün...
həm Yəhudilər, həm Yunanlar,
həm Ərəblər və digər xalqlar
həm kiçiklər, həm böyüklər...



**Rəbb yanımıza gəldi!**

**Məsih Allahın qüdrətidir,**
**Xudavəndin hikmətidir,**
**Görünməz Tanrının surətidir,**
**Ecazkar Məsləhətçi, Qüdrətli Allah,**
**Əbədi Ata, Sülh Hökmdarı.**

Hər dil Ata Allahın izzəti üçün
İsa Məsihin Rəbb olduğunu bəyan etsin.
Rəbb, bizə rəhm et!
Məsih, bizə rəhm et!
Rəbb, bizə rəhm et!

# *173.Gəl, Yaradan Müqəddəs Ruh*



1. Gəl, Yaradan Müqəddəs Ruh! Gəl,
Sadiqlərinə baş çək! Gəl,
Müdrikliklə yaratdığın qəlblərimizi
lütfünlə | bol et!
2. Təsəlli verən Sənsən!
Göydən enən Rəbbimin ənamısan.
Həyatın mənbəyi, alovlu məhəbbət
və ruhani | məlhəmi Sənsən.
3. Sən ənamların bolluğusan.
Uca Rəbbin yaradılış barmağısan.
Atanın vədi Sənsən,
Rəbbin Kəlamını | çatdıransan.
4. Bizi nurlandır! Ruhumuzu gücləndir!
Ürəklərimizə alovlu məhəbbətini tök!
Bədənimiz zəif olanda
onu lütfünün gücü ilə | ruhlandır.
5. Bizi düşmənlərdən qoru, gəl!
Sülhünü üstümüzdən heç vaxt əsirgəmə!
Sənin iradən altında ikən
Bütün pis təsirlərdən | azad oluruq.
6. Atanı tanımağı bizə öyrət,
Oğlunu necə sevməyi bizə öyrət,
Ey Allahın Ruhu, qoy Sənə,
İçdən güvənərək | iman edək. Amin.

## *174.Cavanların Atası*

1. Cavanların atası, uşaqların yoldaşı,
   Don Bosko, oo.



**N: Bizə öyrət necə?**
**Müqəddəs olaq sadəcə,**
**Rəbbi sevək gündüz-gecə,**
**Həmişə doğrunu seçək!**

2. Bizə kömək et, bizim üçün dua et,
 Don Bosko, oo. **N:**

**K: Aaa, Rəbb bizi sevir 2x**

## *175.Minnətdarıq*

Minnətdarıq Sənə, Rəbbim, minnətdarıq,
çünki bizə məhəbbət verirsən
*(Məhəbbət verirsən)*

...iman, ümid, hər şeyi, dostları, çörək...

## *176.Üçlük Olan Tək Allah*

Üçlük olan tək Allah, Səsimiz Səni mədh edir,
Qəlbimiz Səni sevir, Ruhumuz Sənə susayır.
*(Ata, Oğul, Müqəddəs Ruh....)* Amin.
*(Tanrı Özü, Tanrının Sözü, Tanrının Ruhu...)*
*(Sevən, Sevilən, Sevgi...)*

# *177.Rəbbim və Tanrım*

Müq. Flüeli Nikolaus



1. Rəbbim və Tanrım,
   Mənə Sənin yanına
   Gəlməyə mane olan
   Hər şeyi məndən al.

2. Rəbbim və Tanrım,
   Məni Sənin Ürəyinə
   Yaxınlaşdıran
   Hər şeyi mənə ver.

3. Rəbbim və Tanrım,
   Məni məndən al və tamamilə
   Özünə həsr et.

# *178.Rəbb, Rəbb, bizə rəhm et*

Rəbb, Rəbb, bizə rəhm et, bizə rəhm et!
Məsih, Məsih, bizə rəhm et, bizə rəhm et!

Rəbb,İsa Məsih, mən günahkara, mərhəmətli ol!
Rəbb,Allahın Oğlu, bizə rəhm et, bizə rəhm et!
Rəbb, Xilaskar, biz günahkarlara, mərhəmətli ol!
Uca Allah, Ata-Oğul-Ruh,
bizə rəhm et, bize rəhm et!
Tanrımız, Ümidimiz, bizə rəhm et, bizə rəhm et!
Əzabların xətrinə, bizə, dünyaya mərhəmətli ol!
Rəbb, Rəbb, bizə rəhm et, bizə rəhm et!

## *179.İzzətləndirin*

*Zvelebujte Pána*

İzzətləndirin Rəbbi mələklər və insanlar!
Onun önündə yerə düş, ey yazıq günahkar!
Göz yaşlarını silir, dar günündə tərk etməz
səni! Səni yaratdı və əzəldən səni çox sevdi!
Müdrikliyi sərhədsizdir,
O, müqəddəsdir, məhəbbətdən dolu.
Bütün yaradılış alqış et, Allaha həmd et!

## *180.Gəlmişik*

*Zídení*

Gəlmişik Sənin hüzuruna bir ailə kimi.
Canbir qəlbdə oxuyuruq Sənə, Şahların Şahı.
Deyək - Abba-Atamız, dəyərli Sənsən!
Deyək - Abba-Atamız, Sən müqəddəssən!

## *181.Hüzuruna Gəlmişik*

*Dominika Gurbaľová - Prišli sme ti povedať*

( **Hüzuruna gəlmişik, qəlbimizi açırıq,**
**bizi eşidirsən, həmişə sevirsən.** ) 3x
Əminəm ki, məni dinləyirsən
dediyim sözlərdən dərinliyini bilirsən.

# *182.İsanın Adına Yalvarışları (Litaniya)*

beat

Rəbb, Rəbb, (bizə rəhm et!)$^2$
Məsih, Məsih, (bizə rəhm et!)$^2$
Rəbb, Rəbb, (bizə rəhm et!)$^2$---Amin!

---

İsa, Allahın Oğlu, (bizə rəhm et!)$^2$
İsa, Həqiqət Günəşi, (bizə rəhm et!)$^2$ ---Amin!

---

İsa,Ümid Yerimiz, (bizə rəhm et!)$^2$
İsa, Əbədi Müdriklik (bizə rəhm et!)$^2$---Amin!

---

Şəhidlərin Qalası, (bizə rəhm et!)$^2$
Müqəddəslərin Tacı, (bizə rəhm et!)$^2$---Amin!

---

Hər pislikdən, hər günahdan, qurtar bizi İsa!
Murdar ruhdan, əbədi ölümdən, qurtar...

---Amin!

Miladın naminə, əzabların naminə, qurtar...
Çarmıxın naminə, ölümün naminə, qurtar...

---Amin!

Dirilmən naminə, yüksəlmən naminə, qurtar...
Sevincin naminə, şərəfin naminə, qurtar...

---

**Üzərinə dünyanın günahlarını götürən**
**Allahın Quzusu, İsa, bizə rəhm et!**
**, İsa, bizi dinlə!**
**, İsa, bizə mərhəmət et!**

Ey Məsih, dinlə bizi! Ey Məsih, eşit bizi!

# *183.Litaniae Sanctorum*

*Bütün müqqədəslərə yalvarışlar*

Ya Rəbb, bizə rəhm et - Ya Rəbb, bizə rəhm et!
Məsih, bizə rəhm et - Məsih, bizə rəhm et!
Ya Rəbb, bizə rəhm et - Ya Rəbb, bizə rəhm et!

1. Müqəddəs Məryəm,
   Müqəddəs Yusif,
   Müqəddəs Mikael,
   Müqəddəs Allahın mələkləri,
   Müqəddəs Yəhya vəftizçi,
   Müqəddəs Peter və Pavel,
   Müqəddəs Andrey,
   Müqəddəs Yəhya,

***bizim üçün dua et***
*bizim üçün dua edin*

**N:Bütün müqəddəslər, bizim üçün dua edin!**

2. Müqəddəs Bartalmay,
   Müqəddəs Məsihin şagirdləri,
   Müqəddəs Məcdəlli Məryəm,
   Müqəddəs Stefan,
   Müqəddəs İgnatius,
   Müqəddəs Luçia,
   Müqəddəs Avqustin,
   Müqəddəs Bazil,

***bizim üçün dua et***
*bizim üçün dua edin*

3. Müqəddəs Fransisk və Dominik,
Müqəddəs Klara,
Müqəddəs don Bosko,
Müqəddəs Maria Dominika,
Müqəddəs İkinci İoan Pavel,
Müqəddəs Tereza ana,
Müqəddəs Dominik və Laura,

***bizim üçün dua et***
*bizim üçün dua edin*

Rəbb, bizə mərhəmət et! * bizi xilas et!
Hər pislikdən * bizi xilas et!
Hər günahdan * bizi xilas et!
Əbədi ölümdən * bizi xilas et!
Sənin təcəssümünə görə * bizi xilas et!
Sənin ölümünə görə * bizi xilas et!
Sənin dirilişinə görə * bizi xilas et!
Müqəddəs Ruhu verdiyinə görə * bizi xilas et!

**Ya, Rəbb, dualarımızı eşit!**

Bizə, günahkarlara rəhm et * eşit bizi, ya Rəbb!
Rəbb, yeni həyat ver * eşit bizi, ya Rəbb!
Öz seçdiyin övladına * eşit bizi, ya Rəbb!
İsa Məsih, Allahın Oğlu * eşit bizi, ya Rəbb!
Öz Ruhunu bizə ver * eşit bizi, ya Rəbb!

**Ya, Rəbb, dualarımızı eşit!**

Ya Rəbb, bizə rəhm et - Ya Rəbb, bizə rəhm et!
Məsih, bizə rəhm et - Məsih, bizə rəhm et!

# *184.Doğulub İlahi Körpə*

**N: Doğulub ilahi körpə,**
**Ud, dümbələk, qaval çalaq biz,**
**Doğulub ilahi körpə,**
**Gəlişinə sevinək biz.**

1. Bir neçə min ildən bəri,
Peyğəmbərlərdən vədedilmiş,
Bir neçə min ildən bəri,
Gözlədik bu ili.

2. Ah, nə gözəl nə şirin,
Ah, lütfləri nə mükəmməl,
Ah, nə gözəl nə şirin,
Bu ilahi körpə.

3. Ey İsa, ey qüdrətli Şah,
Uşaq olduğun halda,
Ey İsa, ey qüdrətli Şah,
Bizi idarə et.



# 185.Səssiz Gecə, Sirli Gecə

*Silent Night, translation: Müşfiq*

1. Səssiz gecə, sirli gecə,
   Hər şey dinməz uyuyur.
   Yalnız Yusiflə Məryəm keşikdə,
   Şirin, əziz körpəcik beşikdə
   Oğlan, uyu, rahatlan, Oğlan, uyu, rahatlan.

2. Səssiz gecə, sirli gecə; ey İsa, O çöhrəndə.
   Məhəbbətin saf işığı parlar,
   Çarmıxından lütfün çağı başlar
   Sən, ey Allahın Oğlu, Sən, ey Allahın Oğlu.

3. Səssiz gecə, sirli gecə,
   Göydən nurələnməkdə,
   Çöldə çobanlar qalıblar heyran,
   Göydən mələklər oxuyur şükran
   Xilaskarımız gəlib, Xilaskarımız gəlib.



## *186.Körpə Doğuldu*

*Is 9:6   Lk 1:35  Musiqi: Aysel Quluzadə*

Bizim üçün körpə doğuldu, bizə oğul verildi,
Hakimiyyət olacaq onun çiyinləri üzərində.
Onun adı Ecazkar Məsləhətçi, Qüdrətli Allah,
Əbədi Ata, Sülh Hökmdarı olacaq.

Müqəddəs Ruh üzərinə enəcək sənin,
Haqq-Taalanın qüdrəti üstünə kölgə salacaq.
Buna görə də doğulacaq
Müqəddəs Övlad (:Allahın Oğlu adlanacaq:)

## *187.Sevinc Günü*

**N: Sevinc günü, barış günü,**
**Məsih dünyamıza endi!**
**Sevinc günü, barış günü,**
**Məsih dünyamıza gəldi!**

1. Dünyaya Xilaskar gəldi,
Alqışlayın onu insanlar!

2. O bağışlayır bütün günahı,
Ürəyinə burax sən Allahı!

3. İsa gətirdi qurtuluş, sevinc,
Sevinin insanlar sevinin!

## *188.Sevin Dünya!*

*Joy to the world*

1. Sevin dünya, Rəbb gəlibdir!
   Rəbbi qəbul eylə!
   Hərə öz ürəyində
   Ona yer hazır eylə.

**( Biz həmd olsun deyək ) 2x**
**Rəbbin adına biz həmd olsun deyək!**

2. Sevin dünya, Rəbb hökm edir!
   Gəlin nəğmə deyək!
   Çaylar, dənizlər, dağlar,
   Bütün təbiət, çağlar

**( Alqışlayır Rəbbi ) 2x**
**Bütün sevinclə alqışlayır Rəbbi!**

3. Azad olduq günahlardan!
   İndi şadlıq edək!
   Məsih xilası gətirdi,
   Sevinc nəğməsi səsləndi!

**( Biz həmd olsun deyək ) 2x**
**Rəbbin adına biz həmd olsun deyək!**

# *189.Mələkləri Dinləyin*

*Hark! The Herald Angels Sing*

1. Mələkləri dinləyin, “İsa Məsih doğuldu!
   Dünyaya mərhəmət gəldi,
   Barışıq verdi Allah”
   Bütün millətlər sevinsin,
   Göylərdən gəldi Müjdə.
   *Mələklər nəğmə deyir.*
   *“Sülh Padşahı doğuldu!”*
   *Mələkləri dinləyin: “İsa Məsih doğuldu!”*

2. Yer və göy səcdə edir, O, rəblərin Rəbbidir!
   Tam vaxtında doğuldu Bakirə Məryəm Oğlu,
   İlahi insan oldu, bu gün Məsih doğuldu,
   *İnsan tək zühur etdi, Məsihdir – İmmanuel!*
   *Mələkləri dinləyin: “İsa Məsih doğuldu!”*

3. Səmalar da car çəkir:
   “Sülh Padşahı doğuldu!
   Nur və həyat gətirdi, insana şəfa verdi”.
   Fağır Oğul izzəti ilə ölümə qalib gəldi.
   *İnsan oğlu, qalx, sevin!*
   *Göylərdən doğuldun sən!*
   *Mələkləri dinləyin: “İsa Məsih doğuldu!”*

# *190.Göylərdən gəldin Sən*

Chris Tomlin - Adore

1. Göylərdən gəldin Sən, itaət etdin
Yaratdıqların-la-a-san
Axurda nur saçır Emmanuil
Dünyaya nur saçdı
Xilasla

**N: Gəlib səcdə edək, səcdə edək**
**Rəbbim O Məsih Rəbbdir**
**Bütünlüklə səcdə edək**

2. Müdriklər pay verilər
Çobanlar əyildi
Göylər oxuyur: "Yerdə sülh"
Nə verə bilərəm
Göydə Padşaha
Öz həyatımı Sənə verirəm

***K:Göylər izzət verir doğulan Şaha***
***Yerdə sülh, aramızda sevinc artdı***
***Səcdəyə gələk***

## *191.O filii et filiae*

**N: Halleluyah! Halleluyah! Halleluyah!**

1. Mələk "Sevin Məryəm" dedi,
   Rəbbimiz dünyaya gəldi,
   Günahlardan xilas etdi, halleluyah!

2. Məsih çarmıxını aldı,
   Ölümdə üç gün qaldı,
   Günahlar artıq yox oldu, halleluyah!

3. Qadınlar məzara gəldi,
   Orada mələyi gördü,
   Məzar bomboş görünürdü, halleluyah!

4. Məsih Tomasa gəl dedi,
   Yaralara toxun dedi,
   “İmanlı ol Tomas!” dedi, halleluyah!

5. Bayramımız mübarək olsun,
   Könlümüzə iman dolsun,
   Ancaq tək bir səs duyulsun, halleluyah!

# *192.Həqiqət Ruhu, Gəl*

**N: Həqiqət Ruhu, gəl ürəyimizə,**
**Müqəddəs Ruh, gəl qəlblərimizə.**

1. Həyəcanımızı dinc bir sükuta çevir,
Narahatlığımızı dinc etimada çevir.

2. Bizim əyri yollarımızı düzləndir,
Boşluğumuzu Məhəbbətinlə doldur.

3. Gecəmizi Öz nuruna çevir,
Qəlbimizin qışını baharına çevir.

4. Qorxumuzu Sənə olan
sarsılmaz bir imanla dəyişdir,
Qəlbimizin qaranlığını
yumşaq bir işığa çevir.



## *193.Məzmur 27 – Rəbdir nurum*

**N:Rəbdir nurum və qurtuluşum, mən kimdən qorxum? Kimdən vahimələnim?**

1. Əgər yer üzündəki,
   bütün şər insanlar əleyhimə
   qalxsalar belə, o zaman da, o anda da,
   mən ümid edəcəyəm.
   2. Ey Allahım, Səndən bir istəyim var,
      bir şeyi axtarıram – hər gün,
      hər saat Sənin evində yaşamaq.
3. Öyrət, ey Rəbb, elə et ki, hər yeni gün,
   xilasıma çevrilsin. parlaq günlərdə də,
   çətin günlərdə də, mən ümid edəcəyəm.

## *194.Akvinalı Tomasın duası*

*Elşən Mingəçəvirli*

Ya Rəbb, Allahım,
mənə Səni tanımaq üçün bir ağıl,
Səni axtaracaq bir ürək,
Səni tapmaq üçün hikmət,
Sənə xoş gələcək davranışlar,
Səni gözləyəcək sadiq əzm
və nəhayət, Səni qucaqlamaq ümidi
nəsib et! Amin.

# 195.Hamıdan çox

*Elşən Mingəçəvirli*

Hamıdan çox, hökmə sığmayan,
Hər şeydən üstünsən, ey Yaradan.
Hikmətlərdən və möcüzələrdən,
Kainatı Sən yaratdın, Rəbbim.

Hamıdan çox, Rəbb, gözəlsən,
Bütün taxtlardan, bütün sərvətlərdən.
Yer üzündə dəyərli şeylərdən,
Daha böyükdür Sevgin, Rəbbim.

**N: Çarmıxda tərk olundun,**
**Tapdalanan bir qızıl gül kimi,**
**Düşdün yerə, tənhalıqda,**
**Seçdin məni, sevdin məni,**
**Hamıdan çox.**



# 196.Mərhəmət Anası

*Salve Mater Misericordiae*

Salam sənə, mərhəmət Anası
Allah Anası, lütfün qapısı,
Ümid Anası, nemət qaynağı,
Müqəddəs sevincin Anası. Ey Məryəm!

Salam, bəşəriyyətin fəxri,
Ey, bakirələrin ən gözəli,
Sən hamıdan ucada dayanan,
Səmada tac taxan bakirə! Ey Məryəm!

Salam, Müqəddəs Döllənmə:
Oğlun Atanın sağındadır,
Göyə, yerə, ruhlara hökm edir,
Amma ilk ağuşunda gizlənir. Ey Məryəm!

Ol bizə təsəlli, Ana Məryəm,
Sevincimiz ol sən, Pak Bakirə,
Bu sürgün həyatı qurtaranda,
Bizi Cənnətdə sən qarşıla. Ey Məryəm!

# Dualar



## Xaç işarəsi

Ata, Oğul və Müqəddəs Ruhun adı ilə. Amin.

## Rəbbin duası

**Ey göylərdə Olan Atamız!**
Adın Müqəddəs tutulsun, Sənin Səltənətin
gəlsin, göydə olduğu kimi, yerdə də
Sənin iradən olsun. Gündəlik çörəyimizi bizə
bu gün ver; və bizə borclu olanları
bağışladığımız kimi,
bizim borclarımızı da bağışla.
Və bizi sınağa çəkmə, lakin bizi şərdən
xilas et. Çünki səltənət, qüdrət və izzət
əbədi olaraq Sənindir! Amin.

## Mələyin salamı

**Salam, mübarək Məryəm!**
Rəbb Səninlədir. Sən qadınlar arasında
bəxtiyarsan və Sənin bətninin Səmərəsi İsa
bəxtiyardır. Müqəddəs Məryəm, Allah Anası,
indi və ölüm saatımızda
biz günahkarlar üçün dua et. Amin.

## Müqəddəs Üçlüyə Həmd

Ataya, Oğula və Müqəddəs Ruha
indi də, həmişə də,
əbədi olaraq da həmd olsun. Amin.

## Mərhumlar üçün dua

Ya Rəbb, mərhumlara əbədi sülh ver,
Qoy onlara əbədi nur saçsın.
Sülh içində istirahət etsinlər. Amin.

## Rəbbin mələyi

Rəbbin mələyi Məryəmə xəbər verdi
- və O, Müqəddəs Ruhdan döllənDİ.

*Salam, mübarək Məryəm! Rəbb Səninlədir.
Sən qadınlar arasında bəxtiyarsan və Sənin bətninin
Səmərəsi İsa bəxtiyardır. Müqəddəs Məryəm, Allah
Anası, indi və ölüm saatımızda
biz günahkarlar üçün dua et. Amin.*

Budur, mən Rəbbin quluyam
- mənə söylədiyin kimi olsun.

*Salam, mübarək Məryəm ...*

Kəlam cisim oldu - və bizimlə yaşadı.

*Salam, mübarək Məryəm ...*

Ey müqəddəs Allah Anası, bizim üçün dua et ki,
- Məsihin vədlərinin
yerinə yetirilməsinə layiq görülək.

**Dua edək:** Ya Allah, qəlblərimizi Öz lütfünlə
doldur ki, mələyin xəbəri vasitəsilə biz
Oğlunun cisim olmasını bilək, çarmıxda Onun
əzabları və ölümü ilə dirilmənin
izzətinə çataq. Bunu Səndən,
Rəbbimiz İsa Məsihin adına diləyirik. Amin.

## Həvarilərin Kredosu

İman edirəm. Yeri və göyü yaradan Külli-ixtiyar Ata Allaha və Onun Yeganə Oğlu, Müqəddəs Ruhdan döllənmiş, Bakirə Məryəmdən doğulmuş, Ponti Pilatın hökmü altında əzab çəkmiş, çarmıxa çəkilmiş, ölmüş və dəfn olunmuş, ölülər aləminə enmiş, üçüncü gün dirilmiş, göylərə qalxmış, külli-ixtiyar Ata Allahın sağında əyləşmiş, oradan diriləri və ölüləri mühakimə etməyə gələcək, Rəbbimiz İsa Məsihə iman edirəm. Müqəddəs Ruha, Müqəddəs Ümumdünya Kilsəsinə, müqəddəslərin ünsiyyətinə, günahların bağışlanmasına, bədənin dirilməsinə, əbədi həyata iman edirəm. Amin.

## Nikeya-Konstantinopol Kredosu

İman edirəm – bir tək Allaha inanıram. Yerin və göyün, görünən və görünməyən bütün varlıqları yaradan, Külli-İxtiyar Ata Allaha inanıram. Əzəldən Atadan dünyaya gəlmiş, Allahın yeganə Oğlu, bir tək Rəbb olan Məsih İsaya inanıram.

O, Allahdan Allah, Nurdan Nur,
Həqiqi Allahdan Həqiqi Allahdır.
O doğulmuş, lakin yaradılmamışdır,
Ata ilə eynidir və hər şey onun vasitəsi ilə yaradılmışdır. Biz insanlara görə və bizi xilas etmək naminə göydən enmiş, Müqəddəs Ruhun qüdrətilə Bakirə Məryəmdən Vücud alıb insan olmuşdur. Pontius Pilatus vaxtında bizim üçün acı çəkərək çarmıxa çəkilmiş, ölmüş, dəfn edilmiş və Müqəddəs Yazılara görə üç gündən sonra dirilmişdir. Göyə çıxmış və Atanın sağında oturmaqdadır.
Diriləri və ölüləri mühakimə etmək üçün təkrar gələcək və Onun padşahlığı heç vaxt sona çatmayacaqdır. Peyğəmbərlər vasitəsi ilə danışmış olan Ata və Oğuldan gələn, Ata və Oğul ilə birlikdə sitayiş edilən və ucaldılan, həyatın qaynağı və Rəbb olan, Müqəddəs Ruha inanıram. Bir olan, Müqəddəs, Ümumdünya (katolik) və Həvari Kilsəsinə inanıram. Günahların əfv edilməsi üçün tək bir vəftizi qəbul edirəm, ölülərin dirilişini və əbədi həyatı gözləyirəm. Amin.

## Himayənə gəlirik

Himayənə gəlirik, ey Müqəddəs Allah Anası,
dərd içində olduqda
dualarımıza həqarətlə yanaşma,
lakin həmişə bütün təhlükələrdən bizi azad et.
İzzətli və Bəxtiyar Bakirə Qız. Amin.

## Səmavi Mələkə *(Pasxa dövründə oxunur)*

Sevin, ey səmavi Mələkə, alleluya,
Çünki bətnində daşıdığın, alleluya,
vəd etdiyi kimi, dirildi, alleluya.
Allaha bizim üçün dua et, alleluya.
Bakirə Məryəm, sevin və şadlan, alleluya,
Çünki Rəbb, doğrudan da, dirildi, alleluya.

**Dua edək:** Ey Allah, Oğlunun,
Rəbbimiz İsa Məsihin dirilməsi vasitəsilə
Sən dünyaya sevinc verdin. Səndən diləyirik:
Onun Anası, Bakirə Məryəmin havadarlığı ilə
əbədi həyatın sevincinə çatmaqda
bizə kömək et. Bunu Səndən,
Rəbbimiz İsa Məsihin adına diləyirik. Amin.

# Rozari

Qədim Romada olduğu kimi orta əsrlərdə də adlı-sanlı adamlar arasında onlara tabe olanların, yaxud hörmət edənlərin təqdim etdikləri çiçəklərdən toxunmuş tacı başında gəzdirmək adəti var idi. Kilsə bu adəti ruhani planda tətbiq etməyi və Məryəm Anaya dualardan toxunmuş tac – «Rozari» təqdim etməyi, duada Onu Atanın Qızı, Oğulun Anası və Müqəddəs Ruhun Nişanlısı kimi izzətləndirməyi bizə nəsihət edir.

Adətən, Rozari duası zamanı böyük və kiçik muncuq dənələrindən ibarət olan təsbeh istifadə olunur. Dua edənlər əvvəlcə özlərinə xaç işarəsini çəkirlər, sonra balaca xaçın üzərində **«İman edirəm»** duasını, birinci böyük muncuq dənəsində **«Atamız»**, üç kiçik muncuq dənəsində üç dəfə **«Salam, mübarək Məryəm»** (iman, ümid və məhəbbətin çoxalması üçün), sonra ilk sirrini adı çəkilir, böyük muncuq dənəsində «**Rəbbin duası**», kiçik muncuq dənəsində on dəfə «**Salam, Məryəm**» və sonda «**Müqəddəs Üçlüyə Həmd**» mədhiyyəsini söyləyirlər; həmçinin bu müraciətnaməni də sonda əlavə etmək olar: «**Əzəldən günahsız olan...**» Yaxud 1917-ci ildə Məryəm Ananın Fatimada uşaqlara öyrətdiyi duanı söyləmək olar: «**Rəbb İsa Məsih...**»

## Başlanğıc duası

Rəbb İsa Məsih, Sənə bu Rozarini Adının izzəti üçün Sənin Müqəddəs Ananın şərəfinə və insan ruhlarının xilası üçün təqdim edirəm.

**Əzəldən günahsız olan Məryəm, Sənin yanına gələn bizlər üçün Allaha dua et.**
**Rəbb İsa Məsih, bizim günahlarımızı bağışla, cəhənnəm alovundan bizi xilas et və bütün insanları, xüsusilə də, Sənin mərhəmətinə daha çox ehtiyacı olanları cənnətə apar. Amin.**

## Rozarinin son duası

Ey müqəddəs Allah Anası, bizim üçün dua et ki, Məsihin vədlərinin yerinə yetirilməsinə layiq görülək.

**Dua edək:** Ey Allah, Yeganə Oğlun Öz həyatı, ölümü və dirilməsi bahasına, bizə əbədi xilasın rifahını əldə etdi. Qoy biz Müqəddəs Bakirə Məryəmin Rozari sirlərinə ehtiram edərək, burada düşündüklərimizə bənzəyək və onların vəd etdiklərini əldə edək. Rəbbimiz İsa Məsih vasitəsilə. Amin.

**Sevincli sirlər** **Sevincli mövzular**

1. Məryəmə Xoş Xəbərin verilməsi.
2. Bakirə Məryəmin Elizavetə baş çəkməsi.
3. İsa Məsihin doğulması.
4. Həsretmə.
5. Yeniyetmə İsanın məbəddə tapılması.

**Nurlu sirlər** **Nurlu mövzular**

1. Rəbb İsanın İordan çayında vəftizi.
2. İsa Qanadakı toyda ilk möcüzəsini edir.
3. Allahın Səltənətinin vəzi
   və Allaha tərəf dönməyə çağırış
4. İsa Məsihin surətinin dəyişilməsi.
5. Evxaristiyanın təyin edilməsi.

**Kədərli sirlər** **Kədərli mövzular**

1. Getsemanidə dua.
2. Qamçılanma.
3. Tikanlı tacın qoyulması.
4. Çarmıx yolu.
5. İsa Məsihin çarmıxa çəkilməsi.

**İzzətli sirlər** **İzzətli mövzular**

1. Dirilmə.
2. Göylərə yüksəlmə.
3. Müqəddəs Ruhun enməsi.
4. Məryəm ananın göyə çəkilməsi.
5. Bakirə Məryəmin səmavi izzəti ilə taclanması.



İsa, Sənə ümid edirəm

# Allah Mərhəmətinə rozari duası

**başlanğıcda:**

“Atamız”, “Salam Məryəm”, “İman edirəm”:

**böyük muncuq dənəsində:**

**Əbədi Ata, Sənə bizim
və bütün dünyanın günahlarının əfvi
üçün
* Sevimli Oğlun, Rəbbimiz İsa Məsihin,
Bədəni və Qanını, Canını və İlahiliyini
təqdim edirəm.**

**kiçik muncuq dənəsində on dəfə:**

**Onun əzabları xətrinə * bizə və bütün
dünyaya qarşı mərhəmətli ol.**

**son duası:**

**Müqəddəs Allah, Müqəddəs Güclü,
Müqəddəs Ölməz, * bizə və bütün
dünyaya qarşı mərhəmətli ol.**



## Gəl, ey Müqəddəs Ruh

Göndər sonsuz işığın, səmavi şüasını.
Gəl, ey yetimlər Atası.
Gəl, ey nemətlər qaynağı. Gəl, ey qəlbin nuru.

Sən gerçək təsəlliçi, Sən səxavətli qəlblərin,
Nurlu Qonağı varsan, incə sərinlik Sənsən.
Zəhmətdən dinc rahatlıq, bürküdə təravət mehi,
Ağlayan zaman təsəlli, səmanın mübarək Nuru.

Nur çilə sadiqlərin, möminlərin qəlbinə.
Yardımın olmadan, insanın gücü olmaz,
Şərdən savunma olmaz.

Yu təmiz olmayanı,
islat quruyub qalanı,
Sağalt zərər dəyəni,
yumşalt qəddarlaşanı,
Qızdır üşüyüb donanı,
düz yola qoy azanı.

Bütün etiqadçılarına
möhkəm təvəkkül ver
Yeddi qat müqəddəslik ver,
heyrətamiz mükafat ver
Xilasedici çıxış ver
və əbədi səadət ver.
Amin.



**Rəbb İsa Məsih**,
Sən mənim Rəbbimsən,
Sən mənim Həyatımsan.
İman edirəm ki, məni sevə-sevə
Həyatıma gəlmək istəyirsən.
***Mənə şəfa vermək,***
***Məni xilas etmək istəyirsən.***
Gəl ürəyimə, gəl həyatıma,
Gəl canıma, gəl sözlərimə.
Qoy mən də Səni sevim,
Dünəndən çox, sabahdan az.

**Məsihin Qəlbi,** məni təqdis et.
Məsihin Bədəni, məni xilas et.
Məsihin Qanı, məni suvar.
Məsihin qabırğasından axan su, məni yu.
Məsihin əzabları, məni möhkəm edin.
Ey xeyirxah İsa, məni eşit.
Yaralarında məni gizlət.
Qoyma Səndən uzaqlaşım.
Şər düşməndən məni qoru.
Ölüm saatımda məni çağır
və Yanına gəlməyi mənə əmr et ki,
Sənin müqəddəslərinlə
Səni əbədi olaraq mədh edim.
Amin.

## **Litaniya** *(Bütün müqqədəslərə yalvarışlar)*

(: Rəbb, bizə rəhm et. :) 2x
(: İsa Məsih, bizə rəhm et. :) 2x
(: Rəbb, bizə rəhm et. :) 2x

***Müqəddəs***

Məryəm, Allahın anası, ***bizim üçün dua et!***
Mikael, ***bizim üçün dua et!***
Allahın mələkləri ***bizim üçün dua edin!***
Yəhya vəftizçi ***bizim üçün dua et!***
Yusif ***bizim üçün dua et!***
Peter və Pavel ***bizim üçün dua edin!***
Andrey ***bizim üçün dua et!***
Yəhya ***bizim üçün dua et!***
Bartalmay ***bizim üçün dua et!***
Məsihin şagirdləri ***bizim üçün dua edin!***
Məryəm Məcdəlli ***bizim üçün dua et!***
Stefan ***bizim üçün dua et!***
İgnatius ***bizim üçün dua et!***
Luçia ***bizim üçün dua et!***
Avqustin ***bizim üçün dua et!***
Bazil ***bizim üçün dua et!***
Fransisk və Dominik ***bizim üçün dua edin!***
Klara ***bizim üçün dua et!***
don Bosko ***bizim üçün dua et!***
Maria Dominika ***bizim üçün dua et!***
Dominik və Laura ***bizim üçün dua edin!***
Bütün müqəddəslər ***bizim üçün dua edin!***

(: Rəbb, mərhəmətli ol! :) 2x

Hər pislikdən *
Hər günahdan *
Əbədi ölümdən *
Sənin təcəssümünə görə *
Sənin ölümünə və dirilişinə görə *
Müqəddəs Ruhu verdiyinə görə *

***bizi xilas et!***

Bizə, günahkarlara rəhm et *
Öz seçdiyin övladına yeni həyat ver *
İsa Məsih, Allahın Oğlu *

***eşit bizi Rəbb!***

*(: Rəbb, bizim dualarımızı eşit! :) 2x*



# Litaniae Lauretanae

## *Məryəm Anaya yalvarışlar*

(: Ya Rəbb, bizə rəhm et. :)
(: İsa Məsih, bizə rəhm et. :)
(: Ya Rəbb, bizə rəhm et. :)
Ey Məsih, dinlə bizi * Ey, Məsih, eşit bizi.

Tanrı - Səmavi Ata *
Tanrı - Oğul, dünyanın Xilaskarı *
Tanrı - Müqəddəs Ruh *
Müqəddəs Üçlük, tək Tanrı *

***bizə rəhm et!***

Müqəddəs Məryəm
Müqəddəs Allah Anası
Bakirələrin Müqəddəs Bakirəsi
Məsihin Anası
Kilsənin Anası
İlahi lütfün Anası
Tərtəmiz Ana
Çox iffətli Ana
Hər zaman Bakirə Ana
Günahsız Ana
Məhəbbətə layiq Ana
Heyran olunmağa layiq Ana
Yaxşı məsləhətin Anası
Yaradanın Anası
Xilaskarın Anası
Çox təmkinli Bakirə

***bizim üçün dua et!***



Ehtirama layiq Bakirə
Müjdələnməyə layiq Bakirə
Vəsatətçilikdə güclü Bakirə
Mərhəmətli Bakirə
İmanla zəngin Bakirə
Ədalət aynası
Hikmətin mərkəzi
Xoşbəxtliyimizin səbəbi
Müqəddəs Ruhun məskəni
Şərəf məskəni
Sirli Qızılgül
Davud Qülləsi
Şirmayı Qülləsi
Qızıl ev
Əhd sandığı
Səmanın qapısı
Dan ulduzu
Xəstələrin şəfası
Günahkarların sığınacağı
Acı çəkənlərin təsəllivericisi
Məsihçilərin köməkçisi
Mələklərin Kraliçası
Ata-babaların Kraliçası
Peyğəmbərlərin Kraliçası
Həvarilərin Kraliçası
Şəhidlərin Kraliçası
İman şahidlərinin Kraliçası
Bakirələrin Kraliçası

***bizim üçün dua et!***



Bütün müqəddəslərin Kraliçası
Günahsız yaradılan Kraliça
Səmalara çəkilmiş Kraliça
Müqəddəs rozarinin Kraliçası
Ailənin Kraliçası
Sülhün Kraliçası

***bizim üçün dua et!***

Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə rəhm et
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizi dinlə
Üzərinə dünyanın günahlarını götürən
Allahın Quzusu * Rəbb, bizə mərhəmət et
Müqəddəs Allah Anası, bizim üçün dua et ki
* Məsihin vədlərinə layiq olaq

**Dua edək:**

Rəbb Tanrımız, möminlərinin hər zaman bədənən və ruhən sağlam olmalarını təmin et və həmişə bakirə, çox müqəddəs Məryəmin şanlı vəsatətçiliyi ilə bizi kədərləndirən pisliklərdən xilas et, bizi əbədi sevincə qovuşdur. Bunu, Rəbbimiz İsa Məsihin adı ilə səndən diləyirik.
Amin.

# Sülh üçün dua

*(Müqəddəs Assizili Fransisk)*

Rəbbim, Məni Öz sülhünün aləti et.
Nifrət olan yerdə qoy sevgi,
Ədalətsizlik olan yerdə – əfvi,
İnciklik olan yerdə – bağışlama,
Yalan olan yerdə – həqiqəti,
Ümidsizlik olan yerdə – ümidi,
Qaranlıq olan yerdə – nuru,
Kədər olan yerdə – sevinci əkim.



Ey, İlahi Ağam,
mənə kömək et ki,
təsəlli almaqdansa
daha çox təsəlli
verə bilim,
başa düşülməkdənsə,
başa düşüm,
sevilməkdənsə, sevim.

Çünki biz verərkən
əldə edirik,
Bağışlayarkən
bağışlanırıq,
Ölərkən əbədi həyat
üçün doğuluruq.

## Qoruyucu mələyə dua

Ey məni qoruyan Allahın Mələyi,
həmişə yanımda dayan,
səhər, axşam, gündüz, gecə
mənim köməyimə tələs,
hər bir şərdən məni qoru,
əbədi həyata çatdır.
Amin.



## Allahın mələyi

Ey məni qoruyan Allahın Mələyi,
məni nurlandır, qoru,
istiqamətləndir və apar,
çünki mən səmavi xeyirxahlığa görə
sənin himayənə verilmişəm. Amin.

## Səhər duası

Tanrım, qarşında əyilir və bütün qəlbimlə
Səni sevdiyimi bildirirəm.
Məni yaratdığın, mənə iman verdiyin
və bütün gecə məni qoruduğun üçün
Sənə təşəkkür edirəm.
Gün ərzində edəcəyim bütün işlər Sənin
iradənlə olub, ucalığını artırsın.
Məni günah işləməkdən qoru.
Lütfün mənimlə və bütün sevdiklərimlə olsun.
Amin.

## Axşam duası

Tanrım, qarşında əyilir və bütün qəlbimlə
Səni sevdiyimi bildirirəm.
Məni yaratdığın, mənə iman verdiyin
və bütün günü məni qoruduğun üçün
Sənə təşəkkür edirəm.
Məni yatarkən də bütün təhlükələrdən qoru
və səhv etsəm bunu əfv et.
Lütfün mənimlə və bütün sevdiklərimlə olsun.
Amin.

## İki Məhəbbət əmri

Rəbb Allahı bütün qəlbinlə,
bütün varlığınla və bütün düşüncənlə sev.
Yaxınını özün kimi sev.

## Allahın on əmri

1: Məndən başqa allahların olmasın
2: Rəbb Allahın adını boş yerə dilinə gətirmə
3: Bayram günlərini
təqdis etmək borcunu yadda saxla
4: Ata-anana hörmət et
5: Qətl etmə
6: Zina etmə
7: Oğurluq etmə
8: Yalan şahidlik etmə
9: Heç kimin arvadına tamah salma
10: Heç kimin əmlakına tamah salma

## Bir işə başlamazdan öncə oxunan dua

Hər Şeyə qadir Olan Allahım,
gün boyu qəlblərimizi, bədənlərimizi,
duyğularımızı, hərəkətlərimizi,
sözlərimizi yönləndir və təqdis et.
Verdiyin əmrlərə görə yaşayaq və işləyək,
belə ki, indi Sənə layiq olub
əbədi həyatda da Səninlə birlikdə yaşayaq.
Amin

## Yeməkdən öncə oxunan dua

Bütün Yaradılışı Sevən,
göylərdəki quşlara yemini verən,
təbiəti gözəlliklərlə təchiz edən Allahım,
bütün bu yaratdıqların üçün Sənə şükür edirik.
Bizə verdiyin bu yeməklər üçün də
Səni tərənnüm edir və Şanına tərif deyirik.
Yer üzündəki bütün qullarından
lazımlı qidaları əsirgəmə. Amin




## Yeməkdən sonra oxunan dua

Allahım, bizə verdiyin bütün yeməklər üçün
Sənə şükür edirik.
Birlikdə bölüşdüyümüz bu çörəklə həm Sənə,
həm qardaş-bacılarımıza
və həm də bütün insanlara sevgi ilə
bağlı olaq. Amin

## Rəbb-Allahın tərənnümləri
*(Müqəddəs Assizili Fransisk)*

Möcüzələr yaradan Tanrım,
yalnız Sən Müqəddəssən.
Sən güclüsən, Sən böyüksən, Sən izzətlisən.
Sən hər şeyə qadirsən.
Sən yerin və göyün padşahı,
Müqəddəs Atamsan. Tanrım, Sən yaxşılıqsan.
Sən bütöv yaxşılıqsan. Həqiqi və canlı Tanrım,
Sən ən üstün yaxşılıqsan, Sən sevgisən,
Sən məhəbbətsən, Sən biliksən,
Sən təvazökarlıqsan, Sən səbirsən,
Sən rahatlıqsan, Sən müdafiəsən.
Sən sevinc və ürəklərin həzzisən,
Sən doğruluq və ahəngsən,
Sən şirinlərdən şirinsən.
Sən sığınacağımızsan,
Sən qoruyucumuz və gözətçimizsən.
Sən qüvvətsən, Sən genişliksən.
Sən ümidimizsən,
Sən ən böyük mehribanlığımızsan.
Heyranlıq duyduğumuz böyük Rəbb,
hər şeyə qadir Tanrı, mərhəmətli mehriban
Xilaskar, Sən əbədi həyatımızsan.

†

## Müqəddəs Mələk Mikaelə dua

Müqəddəs Baş Mələk Mikael,
iblisin hiylə və fitnəsinə qarşı olan savaşda
bizi qoru, bizim havadarımız ol.
Qoy Rəbb şeytana əmr etsin,
həlimliklə xahiş edirik,
Sən isə səmavi orduların Şahzadəsi,
qəlbləri məhv etmək üçün dünyanı sərsəri
gəzib dolaşan şeytanı və digər pis ruhları,
Allahın gücü ilə cəhənnəmə göndər. Amin.

## Məhəbbətin etirafı

Rəbb Allah, Səni hər şeydən çox sevirəm və
qonşumu Sənə görə sevirəm, çünki Sən ən
yüksək, sonsuz və ən kamil xeyirxahlıqsan,
hər bir məhəbbətə layiqsən.
Sənin məhəbbətində yaşamağı və ölməyi
qərara alıram. Amin.



## Günahlara görə kədərlənmə

Ey Allahım, günah etməklə cəzaya layiq olduğumu anladığıma görə deyil, həmçinin hədsiz xeyirxah və hər şeydən çox məhəbbətə layiq olan Səni təhqir etdiyimi anladığıma, günahlarıma görə bütün ürəyimlə tövbə edirəm. Buna görə Sənin lütfünün köməyi ilə daha günah etməməyi və günaha aparan vəziyyətlərdən yan keçməyi qəti qərara alıram. Amin.

## Tövbə

Rəbb, günah etdiyim üçün peşmanam, islah olmaq və günahlarımın bağışlanmasını istəyirəm. Rəbb, mən günahkara qarşı mərhemətli ol. Rəbb İsa Məsih, mən günnahkarı bağışla.



## Şəfa duası

Uca Rəbbim, mənə şəfa ver!
**Ürəyimə** şəfa ver ki, ancaq özüm üçün döyünməsin, Sənin Sevginin Ruhuna açılsın.
**Dilimə** şəfa ver ki, heç kimi incitməsin, təsəlli verən sözlər danışsın.
**Ayaqlarıma** şəfa ver ki, büdrəməsinlər, yeni yollarda da sağlam addımlar atsınlar.
**Gözlərimə** şəfa ver ki, ancaq önünə baxmasın, baş verən hadisələrin əsl mənasını ürəyinə daşıya bilsin.
**Qulaqlarıma** şəfa ver ki, bağlı qalmasınlar, kasıbların və çarəsizlərin fəryadlarını eşidə bilsinlər. **Əllərimə** şəfa ver ki, məyus olduğu zaman qoynumda düyünlənən yumru yox, yardım etmək üçün başqasına uzanan əllər olsun. **Zehnimə** şəfa ver ki, donmasın, Sənin sözlərinin izləyicisi olsun.
Mənə şəfa ver ki, Mən də şəfa verə bilim.

Amin.



## Məsihçilərin Köməkçisi Məryəm Anaya xahiş və həsr edilmə

Məryəm ana, Rəbbin anası, sənin müdafiənin altında sığınacaq axtarırıq. Məsihçilərin Köməkçisi, özümüzü sənə tapşırırıb evimizin anası və kraliçası kimi səni seçirik.
Evimizi qüdrətli müdafiənlə hər bir təhlükədən, ziyandan və bədbəxtçilikdən qoru.
Bu evdə yaşayan bizləri müdafiə et, qoru və xeyir-dualı olmağımız üçün Rəbbə dua et.
Hamımız sənin övladların olmaq istəyirik.
Bizim üçün dua et ki, Rəbb qəlblərimizi iman vasitəsilə birləşdirib mərhəmətlə doldursun, bizə sağlamlıq bəxş edib hamını sülhdə saxlasın.
Yalnız məhəbbətdə yaşamaq istəyən bu ailəmizin Rəbbimizə şükür etməsinə kömək et.
Atamızın yanında olduğuna görə həyatımızın bütün sevinc və kədərlərini sənə veririk ki, onları Rəbbin hüzuruna gəlməyimizin ümidi ilə birlikdə Atamıza təqdim edəsən. Yaxşılıq yolunda atdığımız addımlarda yanımızda ol və bizi bütün günahlardan uzaqlaşdır.
Məsihçilərin Köməkçisi Məryəm ana, xahişlərimizi eşit və Oğluna, Rəbbimiz olan İsa Məsihə bizim üçün dua et.
Amin.